Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

11 İYUL 2019-cu il

№ 121 (4019)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# ERMƏNİSTANIN TƏCAVÜZKAR ŞİYASƏTİ ÜZÜNDƏN KTMT-də AZƏRBAYCANIN XEYRİNƏ DƏRİN PROSESLƏR BAŞLAYIB

səh. 9


Avroittifaq Prezidenti Bakıda qətiyyətli ərazi bütövlüyü bəyanatını vaxtında səsləndirdi... səh. 4

Rusiyanın Türkiyəyə satdığı S-400-lərin Ermənistanı qorxuya saldığı məqamlar... səh. 10

Tramp ABŞ-ın xarici siyasətində insan haqlarının prioritetliyi dövrünə yenidən qayıdır səh. 5

Qazaxıstanın böyük vilayətlərindən biri Azərbaycanın modeli ilə "ABAD"laşacaq... səh. 11

"Qara arxeologiya baronları" Azərbaycanda daha bir antik tikilini dağıdıblar səh. 12

Hələ də Bakı qəbiristanlıqları məzar yerləri satmaqda davam edir səh. 14

Pirşağı çimərliyində balıqları kütləvi qıran nədir... səh. 15

Uşaqlarda piylənmə azərbaycanlıların da böyük probleminə çevrilməyə başlayır səh. 14




səh. 8

## Bakıya dünyanın taleyini həll etməyə gəlmiş iki general əvvəlcə ayrı-ayrılıqda İlham Əliyevlə görüşdülər





ATƏT-in Komitə qərarı Azərbaycan qazının Avropa üçün «hava-su gərəkliyini» qəti təsdiqlədi... səh. 6

Paşinyanın prezidentlik sevdası - iki mühüm hədəfdən biri Qarabağ danışıqlarından yayınmaqdır səh. 7

Rusiyada azərbaycanlıların adından yaradılmış ən son təşkilat niyə özünü doğrultmadı... səh. 7

səh. 2

Birinci vitse-prezident Mehriban Əliyeva 170 min şirkətin adından Bakıya gəlmiş Fransanın MEDEF Biznes Şurasının prezidenti ilə görüşdü



səh. 3

Vilayət Eyvazov Avropa Şurasının Media komissarına insan haqları sahəsində polisin fəaliyyətinə dair yeni faktlar açıqladı



səh. 3

Avroittifaqın illik hesabatında Azərbaycanla bağlı şişirdilmiş tənqidlərə etirazlar var...



səh. 11

Bəzi bankların orijinal qazanc mənbəyi - avro əmanətlərinə 1 faiz komissiya haqqı...



səh. 13

Azərbaycanın öz çayına nə gəlib ki, idxal iki dəfə artıb...



## Prezident İlham Əliyev Azərbaycanın iqtisadi modelinin əsas göstəricilərini Fransanın 170 min şirkətini təmsil edən MEDEF prezidenti ilə bölüşdü

*"Avroittifaqdan kənara ilk səfərim üçün Bakını seçdim"*

**Prezident İlham Əliyev iyulun 10-da Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul edib. Qonaqları salamlayan Prezident İlham Əliyev Azərbaycanın iqtisadi inkişaf modeli barədə bunları deyib:**

-Mən MEDEF-dən belə böyük nümayəndə heyətini görməyə şadam. Bu, bizim əməkdaşlığımızın yaxşı nümunəsidir. Bilirsiniz ki, mən Parisdə və Bakıda MEDEF-in üzvləri ilə dəfələrlə görüşmüşəm. Üç il əvvəl böyük bir nümayəndə heyətinin səfərini xatırlayıram və indi müxtəlif şirkətlərin 40 nümayəndəsi ölkəmizdə səfərdədir. Bu həqiqətən də tərəfdaşlığımızın çox yaxşı nümunəsidir. Bu, Azərbaycanda fəaliyyət göstərməyə böyük marağın olduğunu nümayiş etdirir. Sizin təmsil etdiyiniz bir çox şirkətlər ölkəmizdə müxtəlif layihələrdə artıq iştirak edir.

Azərbaycanın iqtisadi inkişafı sürətlə gedir. Hazırda biz əsasən iqtisadiyyatımızın şaxələndirilməsi üzərində işləyirik. Çünki bu əsas prioritetdir. Bu gün neft-qaz sektorundan asılılığın azaldılması bizim əsas vəzifəmizdir. Biz iqtisadiyyatımızın şaxələndirilməsi üçün əlimizdən gələni etməyə çalışırıq. Bu asan deyil, lakin düşünürəm ki, biz yaxşı irəliləyişə nail olmuşuq".

Prezident İlham Əliyev bu ilin iqtisadi göstəricilərinə nəzər salaraq bildirib ki, qeyri-enerji sektoru 3 faizdən çox artıb və kənd təsərrüfatında bu il rekord həcmdə, təxminən 13 faiz artım olub. Qeyri-enerji sənayesində isə artım təxminən 15 faiz təşkil edir. "Bu onu göstərir ki, şaxələndirmə yaxşı nəticələr verir", - deyən dövlət başçısı əmin olduğunu bildirib ki, yerli və xarici şirkətlərin fəal iştirakı ilə Azərbaycan öz məqsədlərinə çatacaq. Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycanda bir çox görüşlər keçirəcəyini deyərək, səfərin çox səmərəli keçəcəyinə ümidvar olduğunu bildirib.

MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö isə çıxışında belə deyib:

- Bizi burada qəbul etdiyinizə görə təşəkkür edirik. Burada olmaq bizim üçün böyük məmnuniyyət və şərəfdir. Şəxsən mən ilk dəfədir ki, Azərbaycanda, Bakıda səfərdəyəm. Məmnuniyyətlə qeyd etmək istərdim ki, bu mənim Avropa İttifaqından kənara ilk səfərimdir. Mən ilk ölkə kimi Azərbaycanı seçmişəm. Bu da fransız biznes ictimaiyyətinin ölkəyə olan marağının göstəricisidir. Bildiyiniz kimi, MEDEF 170 min şirkətin üzv olduğu təşkilatdır. Bu gün mən böyük bir nümayəndə heyətinin tərkibindəyəm".

Jofrua Ru de Beziö nümayəndə heyətinə bank, tikinti, enerji, ətraf mühit, tədbirlərin təşkili, yeni texnologiyalar sahələrini təmsil edən şirkətlərin daxil olduğunu və onların 12 sektoru əhatə etdiyini bildirib. "Bizim üçün bu şirkətləri dəstəkləmək və onları Azərbaycanın böyük potensialı olduğuna inandırmaq çox vacibdir", - deyən MEDEF Biznes Şurasının prezidenti nümayəndə heyətində qeyri-neft sektorunu təmsil edən şirkətlərin əksəriyyət təşkil etdiyini vurğulayıb.

Fransanın Azərbaycandakı səfiri Orelia Buşez fransız şirkətləri ilə yüksək səviyyədə görüşə görə Prezident İlham Əliyevə təşəkkür edib. O, fransız şirkətlərinin Azərbaycanda həvəslə fəaliyyət göstərdiklərini bildirib. Prezident İlham Əliyevin çıxışlarında iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı söylədiyi fikirlərin diqqət doğurduğunu deyən Orelia Buşez Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı artıq nəticələrin göründüyünü və bunun burada təmsil olunan şirkətlərin fəaliyyət müxtəlifliyində də öz əksini tapdığını vurğulayıb. Səfir fransız şirkətlərinin Azərbaycan iqtisadiyyatının inkişafına səmərəli töhfə verəcəyinə əminliyini bildirib.

MEDEF-in beynəlxalq Fransa-Azərbaycan qrupunun rəhbəri, "SUEZ" qrupun baş direktorunun müavini xanım Mari-Anj Döbon bugünkü qəbula görə minnətdarlığını bildirərək, "SUEZ" şirkətinin Azərbaycanda fəaliyyətinə verdiyi dəstəyə görə dövlət başçısına təşəkkür edib. Bir sıra yerli şirkət və agentliklərlə infrastrukturun təkmilləşdirilməsi ilə bağlı əməkdaşlıq etdiklərini deyən Mari-Anj Döbon ölkəmizdə bu sahədə görülən işlərin iqtisadi inkişaf baxımından, həm də vətəndaşların həyatı üçün önəmli olduğunu bildirib, "SUEZ"in bu işlərə bundan sonra da töhfə verəcəyinə ümidvar olduğunu deyib. Mari-Anj Döbon ətraf mühitin qorunması sahəsində ölkəmizdə icra olunan layihələrə dəstək göstərməyə, bu sahədə infrastrukturun inkişafına töhfə verməyə hazır olduqlarını bildirib.

Görüşdə enerji, nəqliyyat, kənd təsərrüfatı, bərpa olunan enerji, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva 170 min şirkətin adından Bakıya gəlmiş Fransanın MEDEF Biznes Şurasının prezidenti ilə görüşdü



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iyulun 10-da Fransa Sahibkarlar Təşkilatı-MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö ilə görüşüb.**

Fransa Sahibkarlar Təşkilatı-MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziönü Azərbaycanda görməkdən şad olduğunu bildirən Mehriban Əliyeva Azərbaycanla Fransa arasında uğurlu əməkdaşlığın qurulduğunu qeyd edərəki, bu əməkdaşlığın bir çox sahələri əhatə etdiyini diqqətə çatdırıb.

Birinci vitse-prezident siyasi, iqtisadi, humanitar əlaqələrin əhəmiyyətindən danışaraq, bu münasibətlərin iki ölkə arasında əməkdaşlığın daha da inkişafına xidmət etdiyini bildirib, enerji sahəsindəki əməkdaşlığın uğurla davam etdirildiyini deyib, Fransa şirkətlərinin Azərbaycanda qeyri-neft sektorunda fəaliyyətlərinin genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb.

MEDEF-in Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö Fransa müəssisələrinin 170-ə yaxın nümayəndəsinin ölkəmizə səfər etdiyini bildirərək, Azərbaycanda keçirdikləri görüşləri yüksək dəyərləndirib, ölkələrimiz arasında mövcud əməkdaşlığın yüksək səviyyədə olduğunu deyib. Enerji sektorunda əldə edilən nailiyyətlərdən danışan qonaq Fransa şirkətlərinin qeyri-neft sahəsində - informasiya texnologiyaları, innovasiyalar, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, turizm kimi istiqamətlərdə əlaqələrin qurulmasında maraqlı olduqlarını diqqətə çatdırıb. Jofrua Ru de Beziö Fransa şirkətlərinin Azərbaycanda daha da fəal çalışmaları üçün ölkəmizdə bütün şəraitin mövcud olduğunu diqqətə çatdırıb.

Görüşdə bu ilin martında Mehriban Əliyevanın Fransaya səfərinin ikitərəfli əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

## Ermənilər Luvr Muzeyinin ekspozisiyasında olan Azərbaycan xalçalarına da göz dikiblər...

**Ermənilər öz ənənələrinə sadiq qalaraq, Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil olunan "Azərbaycan mədəni irsi Luvr Muzeyində" adlı sərgisinin açılışından "yararlanmaq" məqsədilə "qədim erməni xalçaları"nı xatırlayıblar.**



Erməni mətbuatı sərgidə nümayiş olunan 3 xalça üzərində xaç işarələrini əsas götürərək onları "erməniləşdirməyə" cəhd göstərir. "Xalçanı hələ e.ə. II əsrdən toxuyublar", "carpet beynəlxalq sözü əslində erməni sözüdür" kimi cəfəng fikirlər səslənirən ermənilərin bu iddiasına o qədər də təəccüblənmək lazım deyil. Bunu "Trend"ə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutundan deyiblər.

İnstitutun "Xalçaşünaslıq" sektorunun müdiri, xalçaçı-ekspert, tarix üzrə elmlər doktoru, professor Vidadi Muradov bildirib ki, Azərbaycan xalçaları Azərbaycan tarixinin tərkib hissəsidir: "Xalçalarımız tariximiz, etnoqrafiyamız, mədəniyyətimizlə həmyaşıddır. Qafqazda xalçaçılığın xalqımızla bağlılığı danılmaz faktdır. Xalçaçılıq Azərbaycanın təbiəti, əhalimizin təsərrüfat imkanları, xalqımızın müxtəlif sənət sahələrində nümayiş etdirdiyi istedadı və bacarığı ilə bağlıdır.

Azərbaycan xalçaçısı bunu öz təfəkkürü, dünyagörüşü, mifologiyası ilə bağlı olan naxışlarla, ornamentlərlə toxuyub. Böyüklü-kiçikli bütün elementləri türklükdən qaynaqlanan, türk boylarının rəmzlərindən, işarələrindən ibarət olan Azərbaycan xalçasına qarşı ermənilərin iddiası cəfəngiyyatdan başqa bir şey deyil. Zənnimcə, dünyamız qarşılıqlı elmi, mədəni, siyasi, iqtisadi mübadilə üzərində köklənibsə, ermənilər də tarixən bu mübadilədən "kifayət qədər" yararlandıqlarını, xalça toxumağı (və yalnız toxumağı!) Azərbayan türklərindən öyrəndiklərini artıq etiraf etməli, yersiz hədə-qorxulara, xalçalarımız üzərində əsassız "erməni xaçı", uydurma Artsax dövlətinin sərhədləri və bu kimi erməni simvolizmləri axtarışlarına son qoymalıdırlar".

V.Muradov əlavə edib ki, dünyanın ən məşhur muzeylərində, kolleksiyalarında qədim Azərbaycan xalçaları və xalça məmulatları nümayiş olunur:

"UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Luvr Muzeyindən ölkəmizə gətirilən bu üç xalça XVIII əsrin sonu - XX əsrin əvvəllərinə aid Qarabağ xalçaçılıq ənənələrini əks etdirir. Bunlardan ikisi inkişafı bilavasitə Azərbaycan xalçaçılığı ilə əlaqədar olan "Əjdahalı" xalçasının törəmələri, biri isə tarixən aran Qarabağda, daha doğrusu, Ağdamın Şıxbabalı kəndində toxunan xalçadır. Göstərilən tarixi mərhələ Azərbaycan xalçaçılığının ən məhsuldar dövrlərindəndir. XVIII əsrin sonundan etibarən Azərbaycanda bu və digər xalça çeşnilərı əsasında böyük ustalıqla saysız-hesabsız xalçalar toxunub. İndi də bu tarixi ənənə uğurla davam etdirilir, yaşadılır, xalçaçılıq nəinki mədəniyyətimiz, eyni zamanda iqtisadiyyatımızın da aparıcı sahələrindən birinə çevrilir. Biz azərbaycanlılar xalçaçılığı heç bir səs-küy olmadan, ələvə cənfəşanlıq göstərmədən, "bizimdir, bizimdir!" deyərək yox, xalçaya xalçaçı kimi yanaşaraq yaşadırıq".

## Yunus Oğuzun 5 cildliyinin birinci cildi - "Nadir şah" çapdan çıxdı...

**Yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun 5 cildliyinin birinci cildi çapdan çıxıb.**




Olaylar.az xəbər verir ki, həmin cildə yazıçının ilk tarixi romanlarından olan, dünyanın müxtəlif dillərinə tərcümə olunan və həmin ölkələrdə çap edilən "Nadir şah" romanı daxil edilib.

Romana ön sözü akademik, millət vəkili Nizami Cəfərov yazıb.

Qeyd edək ki, yazıçının seçilmiş əsərləri silsiləsinə daxil olan 4 romanı isə çapa hazırlanır. Yunus Oğuzun əsərlərinin çap işini "Ol" nəşriyyatı həyata keçirir.

# Vilayət Eyvazov Avropa Şurasının Media komissarına insan haqları sahəsində polisin fəaliyyətinə dair yeni faktlar açıqladı

## 5 ildə 3 minə yaxın əməkdaş...

**Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin məlumatına görə, iyulun 10-da Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı xanım Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları salamlayan nazir ATƏT-in Media və KİV azadlığı üzrə nümayəndəsi kimi əvvəllər ölkəmizə səfərləri zamanı xanım D.Miyatoviçlə keçirilən görüşlərdə insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirlər, bu sahədə fəaliyyətin səmərəliyinin artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi barədə aparılmış müzakirələrin çox faydalı olduğunu xatırladıb.

Prezident İlham Əliyevin ölkəmizin hüquq-mühafizə orqanlarının qarşısında qoyduğu ən mühüm vəzifələrdən birinin insan haqlarının qorunması olduğunu vurğulayan general-polkovnik V.Eyvazov bu istiqamətdə Daxili İşlər Nazirliyi ilə Avropa Şurası arasında sıx və işgüzar əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin xüsusi əhəmiyyət daşıdığını, vətəndaşlarla kobud rəftarın və polisin nüfuzuna xələl gətirən digər neqativ halların qarşısının alınması sahəsində də davamlı iş aparıldığını nəzərə çatdırıb.

Peşəkarlığın, dünyagörüşün artırılması, beynəlxalq təcrübənin tətbiqi yönündə görülən işlərin məqsədyönlü və sistemli şəkildə həyata keçirildiyini qeyd edən nazir bildirib ki, daxili işlər orqanlarının əməkdaşları müxtəlif ölkələrə, o cümlədən Amerika Birləşmiş Ştatlarına və Avropa dövlətlərinə təlimlər keçməyə göndərilir, təcrübəli beynəlxalq ekspertlərin iştirakı ilə ölkəmizdə seminarlar, treninqlər, kurslar təşkil olunur. Yalnız insan hüquqları üzrə ölkəmizdə və xarici dövlətlərdə keçirilən tədbirlərdə son 5 ildə DİN-in 3 minə yaxın əməkdaşı iştirak edib.

Qonağın nəzərinə çatdırılıb ki, korrupsiya hüquqpozmalarına şərait yaradan halların aradan qaldırılması, o cümlədən məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsi məqsədilə əhaliyə 28 istiqamət üzrə elektron xidmət göstərilir.

General-polkovnik V.Eyvazov bildirib ki, Nazirliyin "102" Xidməti-Zəng Mərkəzi" Sisteminin və "Təhlükəsiz Şəhər" Xidmətinin fəaliyyəti məhz insan amili kimi ali prinsip üzərində qurulub, DİN-də yaradılmış digər qaynar xətlər ("902" və "1002"), ayrı-ayrı struktur qurumların elektron poçt ünvanları, sahibkarların hüquqlarının pozulması ilə bağlı müraciətlərə baxan Apelyasiya Şurası daxil olan müraciətlərin operativ həllinə, vətəndaşların məruz qaldığı hüquqazidd əməllərə qarşı



təxirəsalınmaz tədbirlərin görülməsinə xidmət edir.

Avropa Şurası komissarının diqqətinə o da çatdırılıb ki, polis əməkdaşları tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının pozulması barədə müraciətlər DİN-in aidiyyəti idarəsi tərəfindən operativ, obyektiv şəkildə araşdırılır, nəticələri məruzə olunaraq müvafiq tədbirlər görülür. Təkcə son 5 il və cari ilin I yarısında vətəndaşlarla kobud rəftara, müxtəlif hüquqpozmalara, bir sözlə, vətəndaş hüquqlarını pozduqlarına görə 2040 əməkdaş intizam məsuliyyətinə cəb olunub. Tutulmuş və ya həbs olunmuş şəxslərə işgəncə vermə və ya onlarla qeyri-insani rəftar halları qeydə alınmayıb. Qeyd olunan müddətdə beynəlxalq və yerli hüquq müdafiə təşkilatları tərəfindən ərazi polis orqanlarının Müvəqqəti Saxlama Yerlərində (MSY) 1318 monitorinq keçirilib. Onların hamısında əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib, MSY-lər müasir videomüşahidə nəzarət kameraları ilə təchiz edilib.

Xanım Dunya Miyatoviç qəbula və ətraflı məlumata görə təşəkkür edib, Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı yüksək qiymətləndirdiyini, budəfəki səfərində əsas məqsədinin insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində hərtərəfli yardım göstərmək, bu prosesə dəstək vermək olduğunu xatırladıb. O, Avropa Şurasının təşəbbüsü ilə ölkəmizdə həyata keçirilən demokratik islahatlar prosesində polis orqanlarının bundan sonra da fəal iştirak edəcəyinə ümidvar olduğunu bildirib.

Səmimilik şəraitində keçən görüşdə bir sıra digər məsələlər də müzakirə olunub, qonaqları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Avroittifaqın illik hesabatında Azərbaycanla bağlı şişirdilmiş tənqidlərə etirazlar var...

**Məlum olduğu kimi, Avropa İttifaqı "Dünyada insan hüquqları və demokratiya ilə bağlı vəziyyətə dair" illik hesabat yayıb. Hesabatın Azərbaycana aid hissəsində bildirilir ki, guya Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyət hələ də narahatlıq doğurur. İddia edilir ki, guya fundamental sərbəst toplaşmaq, söz və birləşmək azadlığı və hakimiyyət orqanları tərəfindən opponent və ya opponent hesab edilənlərin təqibi davam edir.**



## *Elçin Mirzəbəyli: "Hesabatda yer alan məqamlar ənənəvi qərəzli yanaşmadan irəli gəlir"*

Vətəndaş cəmiyyəti üçün kiçildilmiş fəaliyyət dairəsi məhdudlaşdırıcı qanunvericiliklə, o cümlədən, xaricdən maliyyələşdirmə üzrə müddəalarla daha da sıxılıb. Sənəddə, həmçinin, arbitraj həbslərə diqqət yetirilir. Bunu onunla əsaslandırmağa çalışırlar ki, guya məhkəmə qərarı olmadan tanınmış media internet səhifələri bağlanıb, inzibati göstərişə görə müxbirlərin tutulması və ya saxlanması halları baş verib. Vəkillər Assosiasiyasının üzvü olmayan vəkillərin məhkəməyə çıxmasını qadağan edən yeni qaydalar ədalət mühakiməsinə əlçatanlığa ciddi şəkildə mane olur. Vəkillər Assosiasiyası insan hüquqları (İH) müdafiəçilərinin məhkəmə işlərində fəal olan bəzi vəkillərin lisenziyasını əlindən alıb. Hesabatda o da qeyd edilir ki, Azərbaycan beynəlxalq öhdəliklərinə uyğun olaraq, Avropa İnsan Hüquqları Məhkəməsinin qaydalarına uyğunluğu artırmalıdır.

Hesabatın məzmunundan açıq-aydın hiss olunur ki, Azərbaycanla bağlı tənqidlər şişirdilib. Ən inkişaf etmiş ölkələrdə belə, hansısa problemlər olur. Azərbaycana gəldikdə isə son illər insan hüquqları və demokratiya sahəsində bir sıra işlər görülüb. Təəssüflər olsun ki, hesabat hazırlanarkən bunlar nəzərə alınmayıb və nəticədə qərəzli yanaşma ortaya qoyulub.

O baxımdan sözügedən hesabatda Azərbaycanla bağlı səslənən tənqidləri ekspertlər necə dəyərləndirirlər?

### *"Səslənən tənqidlərin ciddi hüquqi əsası yoxdur"*

**Məsələyə münasibət bildirən BAXCP-nin sədr müavini Elçin Mirzəbəylinin sözlərinə görə, hesabatda yer alan məqamlar ənənəvi qərəzli yanaşmadan irəli gəlir:** "Ona görə də bu ənənəvi qərəzli yanaşma tərzidir. Bu qurumun Azərbaycana olan münasibəti Avropa İttifaqı Şurası Prezidenti Donald Tuskun Azərbaycanda sərgilədiyi mövqedə və verdiyi açıqlamalarda özünü büruzə verdi. Ancaq təəssüflər olsun ki, hələ də müəyyən qurumlar məsələni başqa tərəfə yönəltmək istəyirlər. Onlar ölkəmizə qarşı qərəzli münasibətlərini davam etdirirlər. Hesab edirəm ki, bu, məqsədyönlü tənqidi yanaşmadır. Çünki Azərbaycanda insan hüquqları və demokratiya ilə bağlı çoxsaylı iş görülüb. Ona görə də Azərbaycanla bağlı səslənən tənqidlərin ciddi hüquqi əsası yoxdur. Burada müəyyən qədər də korporativ maraqlar var. Digər tərəfdən, bunda Azərbaycana qarşı ənənəvi olaraq qərəzli münasibət sərgiləyən və erməni lobbisi ilə yaxından əlaqəsi olan insanların da rolu var. Nəticə etibarilə Azərbaycanda insan haqlarının vəziyyəti ilə bağlı mənzərə də göz qabağındadır. Ölkəmizdə ciddi hüquqi islahatlar aparılır. Cəzalar yüngülləşdirilir, əfv sərəncamları imzalanır və s. Bütün bunlar Azərbaycanda insan hüquq və azadlıqlarına göstərilən münasibətin mahiyyətini tam çılpaqlığı ilə ortaya qoyur. Bütün bunları müəyyən dairələr görmək istəmirlərsə, bu onların öz problemidir".

***Vidadi ORDAHALLI***

# Avroittifaq Prezidenti Bakıda qətiyyətli ərazi bütövlüyü bəyanatını vaxtında səsləndirdi...

**Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə keçirilən görüşün yekununa həsr edilən brifinqdə Prezident İlham Əliyev bildirib ki, Avropa İttifaqı və Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi, tərəfdaşlıq haqqında gələcək saziş və Qarabağ münaqişəsi ilə bağlı müzakirə aparılıb.**



İqtisadi məsələlər arasında Avropanın enerji təhlükəsizliyinə yönələn energetika və nəqliyyat layihələrinin həyata keçirilməsi, həmçinin, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin yaradılması qeyd edilib: "Azərbaycan bütün bu layihələri həyata keçirməyə hazırdır və Avropanı onlara sərmayə qoymağa dəvət edir. Qarabağ münaqişəsinin həll edilməməşi Cənubi Qafqaz regionunun inkişafına ciddi təsir göstərir və beynəlxalq qurumlar Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla, onu həll etmək üçün səylərini artırmalıdırlar".

D.Tusk bildirib ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır. O, münaqişənin beynəlxalq prinsiplərə əsasən sülh yolu ilə həllinə çağırıb: "Prezident Əliyevlə söhbət zamanı biz bu məsələləri, habelə Azərbaycanda qanunun aliliyinə və insan hüquqlarına hörmətlə yanaşılmasının vacibliyini müzakirə etdik".

Göründüyü kimi, Tusk təmsil etdiyi Avropa İttifaqı adından Azərbaycanın ərazi bütövlüyünə tam dəstəyini ifadə edib. Bu yanaşmanı necə dəyərləndirmək olar?

**Politoloq Zamin Axundov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan-Aİ münasibətlərinin inkişafi, geosiyasi qorxular və s. amillər nəzərə alındıqda, məsələn, geosiyasi təhlükəsizlik, geoiqtisadi blokların fəaliyyətinə zəmanət və gələcəyin perspektivinin formalaşdırılması prosesində, Müstəqil Avropa Siyasətinin prioritetləri kimi mühüm vəzifələrin nəzərə alınmasını tələb etdiyi halda, müvafiq olaraq özünün geosiyasi təhlükəsizliyinə zəmanət yolları axtaran Azərbaycan üçün mürəkkəb bir regionda müstəqil xarici siyasət kursunun həyata keçirilməsini tələb edir:** "Bu kontekstdə regional təhlükəsizlik və sair faktorlar nəzərə alındıqda balanslaşdırılmış xarici siyasət kursunun həyata keçirilməsi prosesi fövqəladə çətin missiyadır.

Paralel müstəvidə çoxfunksiyalı tərəfdaşlıq münasibətlərinin inkişaf dinamikası geosiyasi parametrlərin uyğunlaşdırılmasını tələb etdiyindən, çoxfunksiyalı strukturların qarşılıqlı inkişafının potensialından asılı olmayaraq, (institusional qurumlararası münasibətlər və s.) real siyasət və yaxud da geosiyasi realizm zaman-zaman Aİ - Azərbaycan münasibətlərində prinsipial faktor olub. Xüsusilə kontinental Avropanın təhlükəsizlik qayğıları nəzərə alındıqda, faktiki olaraq, transkontinental təhlükəsizlik sistemində, xüsusilə Avrasiya geostrategiyasında Anqlo-Amerikan dominantlığına adekvat Qərbi Avropanın köhnə oyunçularının, Fransa, Almaniya kimi iqtisadi və hərbi planda ciddi potensiala iddia edən dövlətlərin müstəqil xarici siyasət kursuna meyilli geosiyasi davranışları daha geniş planda Avropanın periferiyasında gedən proseslərə Aİ lokal münasibətini müəyyən edir. Bu kontekstdə Aİ müstəqil xarici siyasət kursunun perspektivlərini formalaşdırarkən periferiyada geosiyasi üstünlük kompleksini nəzərdən keçirməməsi mümkün deyil".

Politoloqun sözlərinə görə, məhz bu fakt Aİ-Azərbaycan münasibətlərində, xüsusilə Qərbi Avropa dövlətlərinin Azərbaycana və onun geosiyasi çəkisinə simpatiya kompleksini meydana çıxarır: "Çünki Azərbaycan geosiyasi planda maksimum müstəqil xarici siyasət kursu ilə çıxış edir. Bu siyasətin çoxfunksiyalı obrazı, heç şübhəsiz, Avroatlantik strukturlara inteqrasiya siyasətinə zəmanət verdiyi halda, digər tərəfdən, regional təhlükəsizliyi transformasiya edir. Müvafiq olaraq bütün bu pozitiv amillər Avroatlantik strukturlara inteqrasiya siyasətinin prioritetlərinə intellektual reaksiya fonunda geosiyasi və geostrateji müstəvidə xüsusi region anlayışını geosiyasətin predmetinə çevirir. Yeni dövrün komplikasiyonları nəzərə alındıqda həm geosiyasi, həm də geoiqtisadi parametrlərin ön plana çıxması faktı sübut edir ki, xüsusilə Fars körfəzi başda olmaqla, Orta Şərq, Şərqi Avropa və s. geostrateji toqquşma zolaqlarında Transkontinental Təhlükəsizlik Sisteminin mühüm komponentləri, Birləşmiş Ştatların Avrasiya geostrategiyası və Avropanı strateji platsdarm kimi nəzərdən keçirməsi faktı müstəqil Avropa siyasətinin mühüm komponentlərini meydana çıxarır.

Məhz belə bir Avropanın geosiyasi davranışları həyat qabiliyyətli geosiyasi sistemin transformasiyasına zəmanət verə bilər, əsasən o halda ki, onun müəyyən prinsipləri və dəqiq geosiyasi hədəfləri olsun. Konkret olaraq yuxarıdakı mülahizələr nəzərə alındıqda Aİ-Azərbaycan münasibətlərini həm geosiyasi, həm geoiqtisadi, həm də Transkontinental Təhlükəsizlik Sistemi kontekstində dərk etmək lazımdır. Regional təhlükəsizliyin transformasiyası və paralel müstəvidə daha geniş regionda iqtisadi və siyasi əlaqələrdə baş arbitr qismində çıxış və s. proqressiv komponentlər Azərbaycan-Aİ münasibətlərinin indeksini müəyyən edir. Bu çərçivədə Aİ-nin Azərbaycanın mövqeyini dəstəkləməsi, prinsipcə, Aİ təhlükəsizlik qayğılarının dərki fonunda da əhəmiyyətlidir. Böyük ehtimalla, Aİ- Azərbaycan strateji əməkdaşlıq münasibətlərinin bu trenddə inkişaf perspektivi yaxın gələcəkdə də davam edəcək. Xüsusilə Azərbaycanın xarici siyasətindəki müstəqil xəttin uzunmüddətliyi və təcrübəsi Aİ geosiyasi davranışlarına təsir etməkdədir. Hər hansı bir şəraitdə Aİ özünün siyasi kimlik anlayışını qlobal geosiyasi proseslərdə, daha prinsipial formada təqdim etmək şansını əldə etsə, onda Azərbaycan - Aİ münasibətlərinin perspektivi müəyyən bir sistemin daxilində həyat qabiliyyətli olardı. Faktiki olaraq, Aİ öz geosiyasi qayğılarına zəmanət yolları axtarır və bu dramatik reallıq Aİ - Azərbaycan münasibətlərində realist bir baxışı, geostrateji tərəfdaşlıq kompleksini geosiyasi arqument kimi xarici siyasətin predmetinə çevirir.

Məhz cənab Tuskun bu pozitiv və proqressiv bəyanatı yuxarıda verilmiş geosiyasi realizm kompleksilə assosiasiya olunur. Prezident İlham Əliyevin irəli sürdüyü müstəqil xarici siyasət kursu və onun perspektivli bir baxışı rəhbər tutan ideologiyası, balanslaşdırılmış xarici siyasət strategiyası Aİ -Azərbaycan münasibətlərinin potensialını formalaşdırır. Böyük ehtimalla, bu siyasət yeni dövrün komplikasiyonlarına intellektual reaksiya fonunda, xüsusilə əlaqələrin inkişafında öz rolunu oynayacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**NATO ilə Rusiya arasında danışıqlar aparmaq üçün məkan kimi yenə də Azərbaycan seçildi. Belə ki, Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov Bakıda NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters ilə danışıqlar aparacaq.**



# Bakı yenidən NATO-Rusiya ali hərbi dialoqu üçün məkan oldu...

## *Fikrət Sadıqov: "Belə mötəbər görüşlərin məhz Bakıda keçirilməsi Azərbaycanın artan önəmindən irəli gəlir"*

Bakının növbəti dəfə qlobal güc mərkəzlərinin hərbi rəhbərliyinin görüşü üçün məkan kimi seçilməsi təsadüfi deyil. Bunun kökündə dayanan bir sıra faktorlar var. Məsələ ondadır ki, Azərbaycan onların görüşə biləcəyi yeganə məkandır. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat dəhlizləri layihələri ölkəmizin bu statusunu daha da möhkəmləndirib. Bununla belə, belə mühüm görüşlərin Bakıda keçirilməsinin əsas səbəblərindən biri də Prezident İlham Əliyevin böyük nüfuzu ilə bağlıdır. Ölkə başçısının sahib olduğu böyük nüfuz bu məsələdə vacib rola malikdir. Reallıq ondan ibarətdir ki, Azərbaycanın müstəqil siyasət yeritməsi dövlətimizin regional və qlobal proseslərdə aktiv rol almasına gətirib çıxarıb. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan nə NATO-nun, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyil. Ancaq ABŞ, Avropa və Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkədir. Azərbaycan təkcə yerləşdiyi regionda deyil, həm də daha geniş miqyasda sabitləşdirici rol oynayır. Digər tərəfdən, Azərbaycan Şərqlə Qərb arasında körpü rolunu oynayır. Bunun özü çox vacib faktordur.

Ümumilikdə, son illərdə NATO hərbi komandanlığı və Rusiya yüksək rütbəli hərbçilərinin görüşü üçün məhz Bakının seçilməsi artıq bir ənənə halını alıb. Rusiya və NATO generallarının mütəmadi olaraq Bakıda görüşüb fikir mübadiləsi aparması iki qütb arasında vacib dialoq mühiti formalaşdırır və gərginliyi daha çox artırmamağa xidmət edir. Bu baxımdan, Bakıdakı dialoqun əhəmiyyəti böyükdür. Rusiya və NATO generallarının Bakıda mütəmadi görüşlərinin keçirilməsi Azərbaycanın bölgədə artan rolunu bir daha ortaya qoyur.

İndiyə qədər bir neçə belə görüş olub. 2017-ci ilin fevralında ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah rəisləri Komitəsinin rəhbəri, general Cozef Danford və rusiyalı həmkarı Gerasimov arasında keçirilən görüş Bakıda baş tutub. 2017-ci ilin sentyabrında NATO Hərbi Komitəsinin rəhbəri, general Petr Pavel Bakıda Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovla görüş keçirib. 2018-ci ilin aprelində isə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimov ilə NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti arasında ilk görüş də Bakıda keçirilib. Həmin ilin dekabrında onların arasında növbəti görüş keçirilib.

XXI əsrin son 4 ili NATO-Rusiya münasibətlərində ən gərgin və böhranlı dövr kimi xarakterizə edilir. Rusiya ordu komandanı ilə görüş üçün Bakının seçilməsi Azərbaycanın regionda həm hərbi, həm siyasi, həm də coğrafi mövqeyindən, o cümlədən, hər iki güc mərkəzi ilə normal

*"Hər iki tərəf bütün bunları başa düşərək dialoq üçün məhz Bakını seçir"*

münasibətlərə malik olmasından irəli gəlir. Yüksək rütbəli generalların, Baş Qərargah rəislərinin Bakıda mütəmadi görüş keçirmələri Azərbaycanın regional dövlət kimi statusunu artırır. Sülh və dialoq məkanı kimi növbəti dəfə Bakının seçilməsi Azərbaycanın beynəlxalq miqyasda rolunu və nüfuzunu daha da artıran amildir.

O baxımdan, növbəti belə görüşün Bakıda keçirilməsini ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, belə mötəbər görüşlərin məhz Bakıda keçirilməsi Azərbaycanın artan önəmindən irəli gəlir:** "Artıq neçə ildir Azərbaycan təhlükəsiz və stabil ölkədir. Belə vacib görüşlərin Bakıda keçirilməsi təsadüfi deyil. Azərbaycanın kifayət qədər belə görüşlərlə bağlı təcrübəsi var. Bir neçə dəfə NATO-nun yüksək rütbəli rəsmiləri Rusiyanın Baş Qərargah rəisi ilə görüşlər keçiriblər. Azərbaycan hər iki tərəflə bərabər əməkdaşlıq edir. Rusiya ilə strateji partnyorluq münasibətləri davamlı xarakter alıb. Digər tərəfdən, biz NATO proqramları çərçivəsində bir sıra təlimlərdə iştirak edirik. Bizim NATO ilə münasibətlərimiz də normal səviyyədədir. Hər iki tərəf bütün bunları başa düşərək dialoq üçün məhz Bakını seçir".

***Vidadi ORDAHALLI***

**ABŞ-ın dövlət katibi Mayk Pompeo iyulun 8-i Amerikanın xarici siyasətində insan haqlarının roluna baxılması üzrə komissiya yaradıb. Komissiya 10 nəfərdən ibarət olacaq. Ona Harvard Universitetinin professoru, ABŞ-ın Vatikandakı keçmiş səfiri Meri Enn Qlendon başçılıq edəcək.**



# Tramp ABŞ-ın xarici siyasətində insan haqlarının prioritetliyi dövrünə yenidən qayıdır

## *Qabil Hüseynli: "ABŞ-ın dərin dövləti yenidən köhnə dəyərlər üzərində xarici siyasət kursunun qurulmasını məqbul sayır"*

Pompeonun sözlərinə görə, komissiya üzvləri arasında insan hüquqları üzrə ekspertlər və bütün siyasi spektri əhatə edən fəallar yer alıb.

Pompeo jurnalistlərin suallarını cavablandırmadan bildirib ki, insan haqlarının müdafiə edilməsi məqsədilə yaradılan beynəlxalq qurumlar öz missiyalarından uzaqlaşıblar: "İnsan haqları ilə bağlı şikayətlər yayıldıqca, bəzi tələblər başqalarına zidd gəlməyə başlayıb, hüquqlardan hansına hörmət etmək lazım gəlməsi ilə bağlı sual və mübahisə doğurub. Dövlət və beynəlxalq qurumlar əvvəlki kimi insan haqları ilə bağlı müvafiq öhdəlikləri tam başa düşmür. Amerikanın xarici siyasətində insan haqlarının roluna məlumatlı baxış keçirməyin vaxtıdır. Hüquq müdafiə təşkilatları Tramp administrasiyasını tənqid edirlər. Onlar deyirlər ki, insan hüquqları administrasiyanın xarici siyasətinin prioritet istiqaməti deyil. Tənqidçilərin fikrincə, bu, ondan xəbər verir ki, administrasiya Səudiyyə Ərəbistanı, Braziliya və Misir kimi müttəfiq ölkələrdə insan haqlarının pozulma hallarına göz yummağa hazırdır".

Pompeo söz verib ki, komissiya tələbləri yerinə yetirmək üçün əlindən gələni edəcək. Bu o anlama gələ bilərmi ki, ABŞ köhnə siyasətinə dönüş etmək istəyir? Söhbət ABŞ-ın digər ölkələrlə münasibətində insan haqlarını daha prioritet kimi nəzərdən keçirəcəyindən gedir. **Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, insan haqları humanizm və maarifçilik dövründə insanların təbii və dərrakədən irəli gələn subyektiv hüquqlarını təsvir edir.** İnsan haqlarının əsas konsepti ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malik olmalıdırlar və bu hüquqlar izahata ehtiyac duyulmadan hamıya aid edilir. İlk dəfə olaraq insan haqlarına Avropada, daha dəqiq desək, 1789-cu ildə Fransada qəbul edilmiş "İnsan və vətəndaş haqları haqqında Deklarasiya"da rast gəlindiyi iddia edilsə də, buna qədər insan haqlarının tanınması uzun inkişaf yolu keçmiş, İngiltərə və Amerikada müvafiq xartiyalar qəbul edilib. Məhz bu səbəbdən Qərb, xüsusən də ABŞ demokratiyanın, insan haqlarının beşiyi hesab edilir, onları digər dövlətlərə nümunə çəkirlər. Hətta bəzi hallarda Qərb dairələri, xüsusilə ABŞ bundan sui-istifadə edərək "demokratiya və insan haqlarının pozulması" adı altında başqa ölkələrə təzyiqlər edir. ABŞ-ın ölkələrlə münasibət qurmasında demokratiya, insan haqları məsələsi daim prioritet olub. Ancaq Tramp hakimiyyətə gələndən sonra bu amil bir qədər arxa plan keçirildi. Demokratiya və insan haqlarının qorunması fonunda, ABŞ-ın maliyyəsi və birbaşa dəstəyilə dünya ölkələrində həyata keçirilən "rəngli inqilab"lara da son verildi. Tramp administrasiyası hesab etdi ki, həmin "rəngli inqilab"lara sərf olunan maddi vəsait iqtisadi cəhətdən özünü doğrultmadı. Trampın məsələyə bir qədər iqtisadi aspektdən yanaşması onun dünyadakı bəzi mövqelərinə təsirsiz ötüşmədi.

Bu baxımdan da ABŞ-ın dərin dövləti yenidən köhnə dəyərlər üzərində xarici siyasət kursunun qurulmasını məqbul sayır. Bu onlar üçün oturuşmuş sistemdir. Onun vasitəsilə öz dövləti maraqlarını da yüksək səviyyədə təmin edə bilirlər. Bu, eyni zamanda, onlara ölkələrə təzyiq etmək üçün də ciddi əsaslar verir. Bu həm də ABŞ-ı hüquq müdafiə təşkilatlarının ciddi tənqidindən xilas edəcək. Çünki son vaxtlar məhz bu amilə görə ABŞ-ı ciddi tənqid edirdilər".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn layihələrin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət kəsb etdiyini Qərb ölkələrinin rəsmiləri də açıq şəkildə bəyan edirlər. Elə ölkəmizdə səfərdə olan Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun bu xüsusda verdiyi açıqlamalar da təsdiq edir ki, Azərbaycan Qərb üçün enerji təhlükəsizliyi baxımından böyük önəm kəsb edir.**

# ATƏT-in Komitə qərarı Azərbaycan qazının Avropa üçün "hava-su gərəkliyini" qəti təsdiqlədi...

O, xüsusən də icrası artıq başa çatmaq üzrə olan "Cənub Qaz Dəhlizi"nin Avropa üçün həyati önəmə malik olduğunu, bunun Avropa İttifaqı və Azərbaycan arasında münasibətlərin daha da sıxlaşmasına xidmət etdiyini vurğulayır: "Münasibətlərimiz intensivləşib və mənim səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Avropa İttifaqı-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcək. Əlbəttə ki, biz bizi sözün həqiqi mənasında birləşdirən "Cənub Qaz Dəhlizi"ni unutmamalıyıq. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, bütün xalqlarımız üçün birbaşa faydalı olmalıdır, Azərbaycanın islahatlar və iqtisadi şaxələnmə prosesini müşayiət etməlidir".

"Cənub Qaz Dəhlizi"nin reallaşması o zamana təsadüf edir ki, Avropa əsas qaz təchizatçısı olan Rusiya ilə mavi yanacaq məsələsində ciddi problemlər yaşayır. Məsələn, artıq məlumdur ki, "Cənub Qaz Dəhlizi"nin işə düşdüyü bir vaxtda Ukrayna ərazisindən Rusiya qazının Avropaya ixracı dayanacaq. Məhz bu mənada, "Cənub Qaz Dəhlizi" Avropa üçün xilas mənbəyi sayılır.

Xatırladaq ki, Ukraynanın "Naftoqaz" dövlət neft-qaz şirkəti ilin sonunadək Rusiyadan qaz tranzitini bütövlüklə dayandırmağa hazırlaşır. Şirkətin icraçı direktoru Yuri Vitenko bu xüsusda bildirib: "Təəssüf ki, Ukrayna ərazisindən qaz tranzitinin təkcə 2020-ci ilin ilk rübü üçün deyil, bütövlükdə 2019-cu il başa çatandan sonra dayandırılacağını gözləyirik". Ukrayna dövlət neft şirkətinin rəhbəri




Rusiyanın "Qazprom" şirkətinin iqtisadi deyil, siyasi amilləri rəhbər tutduğunu vurğulayıb. Ukraynadakı islahatlara dair Torontoda keçirilən konfransda "Naftoqaz" şirkətinin qaz bölməsinin rəhbəri Andrey Favorov da qaz tranzitində üç aya qədər fasilə gözlədiklərini bildirib.

Xatırladaq ki, Ukrayna ərazisindən təbii qaz tranzitinə dair Rusiya ilə qüvvədə olan müqavilə cari ilin sonunda başa çatır. Həmin tranzitin davam etdirilməsilə bağlı Ukrayna, Rusiya və Avropa İttifaqı arasında üçtərəfli danışıqlar aparılsa da, növbəti mərhələnin tarixi hələlik razılaşdırılmayıb. Halbuki, Ukraynanın baş naziri Vladimir Qroysman iyulun 2-də Avropaya təbii qaz tranzitinin, qaz hasilatının təmin olunmasını "Naftoqaz" rəhbərliyinin birbaşa borcu olaraq səciyyələndirmişdi. Amma real vəziyyət budur ki, Avropa Ukrayna vasitəsilə Rusiya qazını ala bilməyəcək. Məhz bu mənada "Cənub Qaz Dəhlizi"nin qeyd olunan vaxtda işə düşməsi Avropa üçün böyük önəm kəsb edir. Digər tərəfdən, Rusiyanın başqa bir layihəsi olan "Şimal axını-2" ətrafında da qalmaqal səngimir. Belə ki, iyulun 7-də ATƏT-in Parlament Assambleyasının siyasi məsələlər və təhlükəsizlik üzrə komitəsi "Şimal axını-2" və "Türk axını" layihələrini enerji resurslarının idxalından asılı dövlətləri siyasi və iqtisadi cəhətdən potensial asılı vəziyyətə salma aləti kimi qiymətləndirən qətnamə qəbul edib. Sənəddə "korrupsiya təcrübəsi, xüsusilə də enerji sektorunda işləyən dövlət monopoliyaları sahəsində hökm sürən rüşvətxorluq"dan narahatlıq bildirilir, həmçinin enerji resurslarını ixrac, idxal edən və onların tranzitini reallaşdıran ölkələr arasında dialoqun inkişaf etdirilməsinin vacibliyi vurğulanır. Qətnamə ATƏT-ə üzv ölkələrin hökumətlərini enerji resurslarından onların ixracından asılı ölkələrə təsir və ya itaət aləti kimi istifadə etməkdən çəkindirir. Müvafiq dəyişiklikləri ABŞ-dan olan parlamentarilər sənədə daxil edib.

"ATƏT regionunda enerji təhlükəsizliyi" qətnaməsinin müəllifi Litvadan olan parlamentari Ruta Milyutedir. ABŞ parlamentariləri Litva və Kanadadan olan bir neçə həmkarları ilə birlikdə sənədə "Şimal axını-2" və "Türk axını" layihələrinin enerji resurslarının idxalından asılı olan üzv ölkələrə potensial siyasi və iqtisadi təsir aləti olmasından xüsusi narahatlıqlarını əks etdirən" düzəliş ediblər. Layihədə söhbət enerji resurslarının bir mənbəsinə olan istinadın artmasından gedir. ABŞ konqresmeni Li Zeldin bu xüsusda bəyan edib: "Mərkəzi və Şərqi Avropadan olan dostlarımız bundan ziyan çəkə bilər. Bu, regionda korrupsiyanın artmasına və stabilliyin pozulmasına gətirib çıxara bilər. Ukraynanın indicə çıxış etdiyi kimi, axının uzadılması ilə bağlı bir sıra nəticələr meydana çıxa bilər. "Türk axını" Rusiyanın başqa ölkələrə təsir imkanını gücləndirir və bunun mənfi nəticələri ola bilər. Biz Rusiyaya Avropanın öz enerjisindən asılılığını dramatik surətdə çoxaltmasına imkan verə bilmərik. Hesab edirik ki, demokratik institutlar "Şimal axını-2" və "Türk axını" ilə bağlı enerji tədarükünün girovuna çevrilməməlidir. Bütün həmkarlarımı bu düzəlişi dəstəkləməyə dəvət edirəm". .

Qeyd edək ki, "Şimal axını-2" layihəsi Rusiya sahillərindən Baltik dənizi ilə Almaniyayadək ildə 55 milyard kubmetr ötürücülüyə malik iki qaz xəttinin tikilməsini nəzərdə tutur. Türkiyə nümayəndə heyəti öz növbəsində düzəlişə etiraz edib, çünki qaz tədarükü "Türk axını"na qoşulmaqda sərbəst qərar verməli olan ölkələr arasında razılaşmaların nəticəsindən asılı olacaq. Almaniyanın iqtisadiyyat naziri Peter Altmayer də "Şimal axını-2" layihəsinin ölkəsi üçün əhəmiyyətindən danışıb. Altmayer "Bild" nəşrinə müsahibəsi zamanı deyib ki, Rusiyanın yeni qaz borusu Berlini Moskvadan asılı vəziyyətə salmayacaq və yalnız iqtisadi fayda gətirəcək: "Biz özümüzü Rusiya Federasiyasından asılı vəziyyətə salmırıq. Burada söhbət tədarük marşrutlarının qısaldılması və yeni tədarük strukturlarının yaradılmasından gedir, belə ki, gələcək illərdə qaza olan tələbatımız əhəmiyyətli dərəcədə artacaq". Altmayer izah edib ki, Almaniya yaxın gələcəkdə kömür və atom enerjisindən imtina edəcək və keçid dövrü üçün qaz-turbin elektrik stansiyalarından istifadə etməli olacaq. Bu səbəbdən də ölkənin qaza olan tələbatı artacaq.

Amma bütün bu qeyd edilənlərə rəğmən, ATƏT-in Parlament Assambleyasının siyasi məsələlər və təhlükəsizlik üzrə komitəsi düzəlişləri nəzərə alaraq qətnaməni qəbul edib. Belə vəziyyətdə "Şimal axını-2" layihəsinin reallaşması daha da çətinləşir. Məhz bu durumda Azərbaycan qazı Avropa üçün əsas xilas mənbəyinə çevrilir.

***Nahid SALAYEV***

# Rusiyada azərbaycanlıların adından yaradılmış ən son təşkilat niyə özünü doğrultmadı...

**Füzuli Məmmədovun (Frenk Elkapone) Rusiyada yaşayan azərbaycanlıları öz ətrafında birləşdirmək kimi iddiası hələ ki, səmərə vermir. Qeyd edək ki, yalnız təmtəraqlı təqdimatı və bahalı məkanda keçirilən tədbirindən başqa heç nəyi ilə yadda qalmayan qurumun sosial şəbəkələrdəki fəaliyyəti də nəzərə çapmır.**



## *Asif İsrafilov: "Bəlkə də Füzuli Məmmədovun özü səmimidir, nəsə iş ortaya qoymaq istəyir, amma onun təşkilatı Rusiyadakı azərbaycanlıları tam əhatə etmir"*

Hiss olunur ki, aprelin 27-də Moskvada Dünya Azərbaycanlıları İttifaqının təşkilatçılığı ilə Rusiya Azərbaycanlıları İttifaqının yaradılması elə oradaca qalıb. Bu müddət ərzində qurumla bağlı apardığımız media monitorinqi əsasında deyə bilərik ki, Füzuli Məmmədov bir neçə idmançı ilə fərdi görüş keçirib. Sonra xarici ölkələrdən birində əslən azərbaycanlı olan bir boksçuya dəstək məqsədilə həmin yarışa qatılıb. Bu aralıqda isə Bakıdakı restoranlardan birində media işçilərinə ziyafət verib. Təbii ki, biz iş adamının gündəlik iş qrafikinə müdaxilə edə bilmərik. Nə də ki, onun keçirdiyi görüşlərin əhəmiyyətsiz olduğu qənaətində deyilik. Ancaq Azərbaycan diasporunun cəmləşdiyi ən böyük ölkədə böyük iddia ortaya qoyub, passiv davranmağın da doğru olmadığını vurğulamaq istərdik. Füzuli Məmmədov yeni təşkilatı yaradanda onun funksionerləri bildirdilər ki, onlar fəaliyyəti dayandırılan ÜAK-a diaspor qurumunun necə fəaliyyət göstərəcəyini göstərəcəklər. Elə yaranandan dərhal sonra jurnalist Fuad Abbasovla yeni qurum arasında qalmaqal yaşandı. Fuad həbs edildi, qarşılıqlı ittihamlar bir qədər səngidi. Bundan sonra yeni qurumun hər hansı bir fəaliyyəti nəzərə çarpmır. Böyük iddialarla meydana atılan yeni qurumun fəaliyyətini qənaətbəxş saymaq olarmı?

**Moskvada yaşayan diaspor fəalı Asif İsrafilov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Füzuli Məmmədovun yaratdığı yeni təşkilatın heç bir fəaliyyəti nəzərə çarpmır:** "Bilirsiniz, diaspor canlı orqanizm kimi fəaliyyt göstərməlidir. Yeni təşkilatda isə bu yoxdur. Onların hamısı gözləyir ki, Füzuli Məmmədovdan pul alıb gedib formal bir tədbir keçirsinlər. Başqa bir yeniliyi görmürük. Hazırda Rusiyada diasporumuz, demək olar ki, başsızdır. Funksional bir quruma ciddi ehtiyac var. Füzuli Məmmədovun təşkilatını Rusiya tərəfi qeydiyyta almır. Ən maraqlısı isə budur ki, onlara heç Azərbaycanın da dəstəyi hiss edilmir. Bir-iki nəfəri bura gətirib şəkil çəkdirməklə iş bitmir. Söhbət Azərbaycanın rəsmi qurumlarının verdiyi xeyir-duadan gedir. Biz bu dəstəyi yeni diaspor təşkilatı ilə bağlı hiss etmədik. Oradakı cazibə yalnız bir adama görədir. Füzuli Məmmədov imkanlı şəxs olduğu üçün, ətrafına toplaşanlar ondan maksimum yararlanmağa çalışırlar. Belə komanda ilə iş görmək olmaz. Bəlkə də Füzuli Məmmədovun özü səmimidir, nəsə iş ortaya qoymaq istəyir, amma onun təşkilatı Rusiyadakı azərbaycanlıları tam əhatə etmir. Heç vitrinində belə Rusiyada qaymaq sayılan azərbaycanlı ziyalılar təmsil olunmur.

Mən həmin təşkilatın perspektivinə inanmıram. Rusiyada yeni bir diaspor təşkilatı qurulmalıdır. Elə təşkilat olmalıdır ki, onu həm Rusiya tərəfi qeydiyyata alsın, həm də Azərbaycanın rəsmi dairələri dəstəyini ifadə etsinlər".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın prezidentlik sevdası - iki mühüm hədəfdən biri Qarabağ danışıqlarından yayınmaqdır

**Daxili təlatümlər içində çabalayan, iqtisadi cəhətdən diz çökmüş Ermənistandakı hakimiyyət və ona yaxın qüvvələr indi də ortaya yeni ideya atıblar. Xüsusilə də Paşinyanın deputat fraksiyası olan "Mənim addımım" belə təşəbbüslə çıxış edir ki, guya ölkənin Təhlükəsizlik Şurasının fəaliyyəti hazırkı idarəetmə modelinə uyğun deyil.**



## *Elşən Həsənov: "Bununla o həm də danışıqlar prosesində bir müddətlik taym-aut götürə biləcəyini zənn edir"*

Müxtəlif bəhanələr gətirilərək qeyd edilir ki, belə olan təqdirdə həmin qurum Nazirlər Kabinetinin bir qolu kimi fəaliyyət göstərir.

Erməni KİV-i qeyd edir ki, yeni idarəetmə modeli onlar üçün xarakterik deyil. Hətta bildirilir ki, Paşinyan özünə elə səlahiyyətləri götürüb ki, bu, qətiyyən parlament idarəsinə uyğun gəlmir. Ən sonda bildirilir ki, vəziyyətdən çıxış yolu köhnə idarəetmə üsuluna qayıtmaqdır. Faktiki olaraq bu qənaətə gəlmək olar ki, Paşinyan prezident olmaq iddiasına düşüb. Təbii ki, burada onların iki məqsədi ola bilər. Birincisi, bu üsulla öz hakimiyyətlərini daha da möhkəmləndirmək istəyirlər. İkincisi isə bununla vaxt udub Qarabağla bağlı danışıqları uzatmağı düşünürlər. Paşinyanın prezidentlik sevdasına düşməsinin arxasında daha hansı niyyətlər dayana bilər?

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, Təhlükəsizlik Şurasının fəaliyyətinin iflic olması ilə bağlı irəli sürülən arqumentlər inandırıcı deyil:** "Bunlar baş aldatmaq, gözdən pərdə asmaq üçün ortaya atılıb. Əvvəlcə gəlin Ermənistanın nə vaxt və niyə idarəetmənin modelini dəyişdiyini yada salaq. Serj Sarkisyan bunu heç də demokratiyaya aşiq olduğu səbəbindən etmədi. Ermənistan Konstitusiyası ona cəmi iki dəfə ardarda prezident olmaq imkanını verirdi. Bu iki dönəmi də o seçilib işləmişdi. Ancaq hakimiyyəti də əldən vermək istəməyən Sarkisyan yeni modelə keçidi təklif etməklə, öz hakimiyyətinin ömrünü uzatmaq istədi. Prezidentliyi formal bir vəzifəyə çevirdi, bütün səlahiyyətlər baş nazirə keçdi. Özü də asanlıqla baş nazir olub, ölkənin idarə etmək istədi. Paşinyanın özü də hakimiyyətə məhz həmin dalğanın üstündə gəldi. Həssas məsələ olduğu üçün, xalqı öz ətrafına toplaya bildi və nəticədə inqilab baş verdi. Bir ildən artıqdır hakimiyyətdə olan Paşinyan nədənsə indi bu məsələdən danışmağa başlayıb. Paşinyan bütün göstəriciləri ilə avtoritar şəxsdir. Onun davranışlarında demokratlıqdan əsər-əlamət yoxdur. Bu səbəbdən o, mütləq hakimiyyət arzusundadır. İstəmir ki, balaca bir ölkədə, hətta səlahiyyətləri olmasa belə, başının üstündə prezident olsun. Eyni zamanda, istəyir ki, prezident idarəetmə üsulunu bərpa edib, daha da özünü möhkəmləndirsin və şərt idarəetmə yürütsün. Biz artıq tez-tez bu təklifləri Ermənistan rəsmilərinin dilindən eşidirik.

Vaqe Qriqoryan Konstitusiya Məhkəməsinin rəhbəri təyin edilməsindən sonra ölkədə Konstitusiya islahatları keçirmək niyyətində olduğunu bəyan edib. Bu məlumatı ilk olaraq Paşinyanın ailəsinə məxsus olan qəzet yayıb.

Baş nazir Nikol Paşinyan əmindir ki, ciddi rəqabətin olmadığı şəraitdə onu asanlıqla prezident seçəcəklər. Bununla o həm də danışıqlar prosesində bir müddətlik taym-aut götürə biləcəyini zənn edir. Çünki bir müddət seçkiyə hazırlığa, sonra isə yeni prezidentin vəzifə səlahiyyətlərinin icrasına gedər. Bununla da Paşinyan bəhanə edib danışıqlar prosesini xeyli uzada bilər. Çünki hazırda ondan konkret addımlar tələb edirlər. O isə daxili rəydən qorxur. Bu səbəbdən də Qarabağla bağlı hansısa addımı ata bilmir. Prosesi yubatmaq məsələsində isə dalana dirənib. Biz bunu Paşinyanın hakimiyyətə gəlişi ilə bağlı prosesdə gördük. Düz bir ilə kimi onun legitimləşməsi gözlənildi. İndi də həmin məsələni təkrar etmək istəyirlər. Ancaq düşünmürəm ki, bu addım Paşinyan üçün məqbul olar. Çünki ölkədəki vəziyyət əvvəlki deyil. Onun nüfuzu çox aşağıdır. Verdiyi vədlərin heç birini yerinə yetirə bilməyib. Xalq artıq ona inanmır. İstənilən halda, biz Qarabağla bağlı danışıqlarda Ermənistanı təlsdirməliyik, onlara əlavə bəhanə üçün əsas verməməliyik".

***Məhəmmədəli QƏRİBLİ***

**Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov Bakıda NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uoltersla görüşəcək. Baki-xeber.com "İnterfax"a istinadən xəbər verir ki, bu barədə RF Müdafiə Nazirliyindən məlumat verilib.**

Söhbət zamanı Bakıda beynəlxalq əhəmiyyətli mühüm görüşlərin keçirilməsindən məmnunluq ifadə olunub.

Görüşdə Azərbaycanla NATO arasında əməkdaşlıq, ölkəmizin Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasına töhfəsi məsələləri müzakirə edilib.

Dünən günün ikinci yarısında isə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov Bakıda NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Baş komandanı Tod Uolterslə görüşüb. Baki-xeber.com

# Bakıya dünyanın taleyini həll etməyə gəlmiş iki general əvvəlcə ayrı-ayrılıqda İlham Əliyevlə görüşdülər





"Bakıda Baş Qərargah rəisi Valeri Gerasimov Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters ilə danışıqlar aparacaq", - nazirlikdən bildiriblər.

Həmçinin, V.Gerasimovun Azərbaycanın hərbi-siyasi rəhbərliyi ilə də görüşləri planlaşdırıldığı qeyd edilir.

Vurğulanıb ki, Gerasimov artıq Azərbaycana işgüzar səfərə gəlib.

Qeyd edək ki, V.Gerasimovla T.Uolters arasında iyunun 3-də telefon danışığı olub.

Bu, Rusiya və NATO generalları arasında Bakıda baş tutan dördüncü görüş olacaq.

Artıq xəbər verildiyi kimi, Bakıya gəlmiş Rusiya və NATO generalları ayrı-ayrılıqda İlham Əliyevin qəbulunda olublar. Belə ki, Prezident iyulun 10-da Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini ilə NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıda səfərdə olan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və Rusiya Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə beynəlxalq səviyyədə mühüm danışıqların mütəmadi olaraq Bakıda aparılmasının əhəmiyyəti qeyd olunub.

Söhbət zamanı Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanaraq, hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olunub.

Görüşdə hərbi və hərbi-texniki sahədə əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında müzakirələr aparılıb.

Prezident İlham Əliyev iyulun 10-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıya gələn NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersın başçılıq etdiyi nümayəndə heyətini də qəbul edib.



xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Qeyd edilir ki, hərbi rəhbərlər Avropada və qlobal miqyasda təhlükəsizlik, Rusiya-NATO təmas xəttində mümkün münaqişələrin qarşısının alınması, terrorizmə qarşı mübarizə məsələlərinə və Əfqanıstan İslam Respublikası, habelə Suriya Ərəb Respublikasında vəziyyətə dair fikir mübadiləsi aparıblar.

Görüşdə qarşılıqlı əlaqələrin davam etdirilməsinə birgə maraq ifadə olunub.

***Hazırladı: Namiq QULİYEV***



# Tramp haqda yazışmaları sızdırılan ABŞ-dakı Britaniya səfiri istefa verdi

**Britaniyanın Birləşmiş Ştatlardakı səfiri Kim Darrok çərşənbə günü vəzifəsini davam etdirməyin mümkün olmadığını deyərək, istefa verdiyini bəyan edib.**

Səfir bu addımı Prezident Donald Tramp haqda Britaniyaya yolladığı tənqidi məzmunlu diplomatik yazışmaların sızdırılmasından sonra atıb.

"Mənim vəzifə müddətim bu ilin sonunda bitsə də, hazırkı vəziyyətdə yeni səfirin təyin edilməli olduğunu düşünürəm" - deyə, Kim Darrok çərşənbə günü açıqladığı bəyanatında bildirib.

Kim Darrok Britaniyanın yüksək diplomatı kimi Vaşinqtonda fəaliyyətə 2016-cı ildə başlayıb.

Səfir Darrokun Donald Tramp haqda söylədikləri Birləşmiş Ştatlar liderinin "bacarıqsız" və "özünə inamı olmayan", administrasiyasının isə "səriştəsiz" olduğu kimi fikirlərini əhatə edir.

Buna cavab olaraq isə ABŞ Prezidenti Donald Tramp çərşənbə axşamı Britaniyanın Vaşinqtondakı səfiri Kim Darroku "çox axmaq adam" adlandırıb.

Diplomatik teleqramlarla tanışlıq Britaniya rəsmiləri üçün nəzərdə tutulub. Təhlilçilər yazışmaların xarici hökumət deyil, Britaniya siyasətçiləri tərəfindən sızdırıldığına inanır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın təcavüzkar siyasəti üzündən KTMT-də Azərbaycanın xeyrinə dərin proseslər başlayıb

**İşğalçı Ermənistanda bu gün böyük narahatlıq və narazılıq predmetinə çevrilən məqamlardan biri də Azərbaycan-Türkiyə-Rusiya üçbucağında genişlənən əlaqələrdir. İndi siyasi, iqtisadi, hərbi və digər istiqamətlərdə bu üç dövlət arasında intensiv əməkdaşlıq münasibətlərinin qurulması müşahidə olunur. Qarşıdakı dövr ərzində birgə əməkdaşlıq nəticəsində Azərbaycan, Türkiyə və Rusiyanın işbirliyinin daha da güclənməsi gözlənir.**

Belə vəziyyət isə işğalçı Ermənistanda getdikcə daha böyük təşviş doğurur. Burada hesab edilir ki, yaranmış vəziyyət Dağlıq Qarabağ münaqişəsinin də gedişinə təsir göstərərək Ermənistanın regionda mövqelərinə daha ciddi şəkildə zərbə vuracaq.

Ekspertlər hesab edir ki, indiki məqamda ermənilərin ciddi narahatlıq keçirməsi heç də əbəs deyil. Məsələ burasındadır ki, Rusiya və Türkiyə artıq böyük dövlətlər kimi dünya siyasətinə təsir edə bilir. Azərbaycan da Cənubi Qafqazın lider dövləti olaraq hər iki ölkə ilə yüksək səviyyəli əlaqələrə malikdir. Bununla yanaşı, Rusiya və Azərbaycan zəngin enerji ehtiyatlarına malikdir və bu fonda da dünyanın siyasi, iqtisadi arenasında mühüm rol oynayırlar. Türkiyə isə artıq bu dövlətlərin enerji resurslarını ixracında əsas tranzit ölkə qismində çıxış edir. Qeyd edilən səbəblərdən bu üç dövlətin əməkdaşlığı regional və qlobal miqyasda geosiyasi əhəmiyyət kəsb edir. Digər tərəfdən daha bir mühüm məqam bundan ibarətdir ki, indi Moskva ilə Ankara arasında əlaqələr müxtəlif istiqamətlər üzrə sürətlə inkişaf edir. Türkiyənin NATO üzvü olmasına baxmayaraq, bu, hərbi sahəni də əhatə etməyə başlayıb. Bunun fonunda iki böyük dövlət arasında siyasi, mədəni, nəqliyyat, enerji, turizm və başqa vacib sferalarda qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdədir. Görünən həm də budur ki, Ankara və Moskva əlaqələri yeni səviyyəyə yüksəltməkdə qərarlıdır. Burada Azərbaycan faktorunu da unutmaq olmaz. Ən azı o baxımdan ki, məhz Azərbaycan iki böyük qonşu dövlət arasında əməkdaşlığın inkişafına özünün töhfələrini verməkdədir. İndi faktiki olaraq bir çox sahələr üzrə bu üç ölkənin əməkdaşlığı yeni mərhələyə yüksəlib və bu proses o dərəcədə inkişaf edib ki, artıq ekspertlər onun geosiyasi təsirindən bəhs edir. Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlıq formatı, ekspertlərin fikrincə, Cənubi Qafqazda geosiyasi mühitin sabitləşməsinə də töhfələr verə bilər. Elə bundan irəli gəlir ki, Ermənistan yaranmış durumda Azərbaycanla əməkdaşlıq edən Rusiyaya tez-tez iradlar bildirməyə çalışır. Eyni zamanda, Belarus və Qazaxıstana qarşı da müəyyən ittihamlar irəli sürür. Çünki bu ölkələr Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) Ermənistanla eyni sırada yer alsalar da Azərbaycanla, eləcə də Türkiyə ilə əməkdaşlığa daha çox önəm verirlər.

İndi Ermənistanda belə əndişə yaranıb ki, bu gedişlə Azərbaycan və Türkiyənin KTMT-yə üzvlüyünə Rusiya lazımi şərait yaradaraq İrəvanın bu təşkilatda sarsılmış mövqeyinə daha bir zərbə endirəcək. Halbuki, bundan əvvəl erməni siyasətçiləri, ekspertləri və hərbçiləri teztez Azərbaycana qarşı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hərbi imkanlarından istifadə edə biləcəklərini dilə gətirirdilər. Lakin bu məsələnin əslində belə olmadığı hamıya məlumdur. Əksinə, Ermənistanla təşkilatın digər üzvləri arasında fikir ayrılığı hələ də qalmaqdadır. Ötən ilin noyabrında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Astana sammiti də Ermənistan üçün bu xüsusda ciddi bir dərs oldu. Xatırladaq ki, həmin vaxt sammitdə təşkilatın baş katibi vəzifəsində olan Yuri Xaçaturovun azad edilməsi Ermənistanın 2020-ci ilə qədər bu təşkilatda söz sahibi olmaq niyyətini puç etdi. Astanada Qazaxıstanın o vaxtkı prezidenti Nursultan Nazarbayev isə çıxış edərək bildirdi ki, həmin vəzifəni Ermənistan nümayəndəsi deyil, Belarus nümayəndəsi tutmalıdır. Bu sammit həm də onunla yadda qaldı ki, Ermənistan tərəfinin bütün cəhdlərinə baxmayaraq, KTMT çərçivəsində müşahidəçi və tərəfdaş dövlətin hüquqi statusunu müəyyən edən sənədə imza atıldı. Elə o vaxtdan İrəvanda hay-həşir salmağa başladılar ki, KTMT çərçivəsində müşahidəçi və tərəfdaş dövlətin hüquqi statusunu müəyyən edən sənəd Azərbaycanın bu quruma üzv olmasına hesablanıb. Ekspertlər də bildirirdi ik, faktiki olaraq Azərbaycanın regiondakı yerini, çəkisini, əhəmiyyətini nəzərə alaraq, KTMT öz nizamnaməsində dəyişiklik edərək həmin təşkilat yanında müşahidəçi dövlət statusu müəyyən edib. Ermənistan rəhbərliyi bundan sonra əmin oldu ki, Azərbaycanın KTMT-də çox ciddi nüfuzu var. Bütün bunlar Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində Ermənistanın hər zaman təşkilatın imkan və potensialından istifadə etməklə Azərbaycanı hədələməsi istiqamətində cəhdlərinin boşa çıxması idi. Təşkilatın mövqeyi bir daha onu göstərdi ki, Azərbaycana bu qurumda böyük hörmət, ehtiram var. İndi Ermənistanı qorxudan başlıca məsələ Azərbaycan və Türkiyənin quruma üzv olaraq burada İrəvanı daha sərt şəkildə sıxışdırmaq imkanı qazanmasıdır.

Ermənistanın "1in.am" nəşri baş verənlərlə bağlı yazır ki, Kreml Bakı və Ankaranı təşkilatda görməyi çox arzu edir. Qeyd olunur ki, məhz belə bir vaxtda Rusiya prezidenti Vladimir Putin KTMT-də müşahidəçi statusu və təşkilatda təmsil olunan ölkələrin səlahiyyətlərinin aydınlaşdırılması haqqında qanun layihələri paketini təsdiq olunmaq üçün Dövlət Dumasına təqdim edib. Nəşr yazır ki, müvafiq sənədin əsaslandırılmasında KTMT-nin "üzv ölkələrinin nümayəndələri" anlayışı aydınlaşdırılır: "Sənədin əsaslandırılmasında qeyd edilib ki, KTMT-nin "üzv ölkələrinin nümayəndələri" anlayışı aydınlaşdırılır. KTMT-də səlahiyyətli nümayəndə anlayışı əvəzinə daimi və səlahiyyətli nümayəndə anlayışı daxil edilir. Baş katibin müavini vəzifələri və onların anlayışı müəyyən olunur. Bu təlimatla, həmçinin, güzəştlər və toxunulmazlıqlar yalnız baş katib və onun ailəsi üçün deyil, onun müavinləri və ailə üzvləri üçün də tətbiq olunur. Burada 1961-ci il aprelin 18-də diplomatik münasibətlər haqqında Vyana konvensiyasının əsas götürüldüyü bildirilib. Üçüncü təlimatda isə KTMT-nin "müşahidəçi" və "tərəfdaş" statusları təşkilat üzvü olmayan, lakin onun məqsəd və problemlərini bölüşən ölkələr və beynəlxalq təşkilatlar üçün müəyyən edilməsini nəzərdə tutur. Maraqlıdır ki, təsdiq olunmağa təqdim edilən 2002-ci il oktyabrın 7-də KTMT-nin hüquqi statusu haqqında razılaşmada dəyişikliklər edilməsi haqqında ikinci və üçüncü təlimatlar 2018-ci il noyabrın 8-də Astanada imzalanıb. Başqa sözlə, Ermənistanın Astanadakı müzakirələrdə iştirak etdiyi və öz razılığını verdiyi məlum olur". Nəşr qeyd edir ki, müttəfiqlər dolayı yolla institusional səviyyədə İrəvanın fəaliyyətini tənqid edib: "Diqqət etsək, o zaman rəsmi İrəvanın razılığı ən azı qəribə görünür. İkinci təlimatın müddəaları qüvvəyə minərsə, bunun ardınca ən azı Ermənistan hakimiyyətinin KTMT-nin baş katibi Yuri Xaçaturova qarşı fəaliyyətləri hüquqi ekvivalentlikdən kənar qalır. Məlumdur ki, KTMT-yə üzv digər ölkələr bu düzəlişləri keçən ilin yay ayında Ermənistanda baş verən dramatik hadisələrdən, yəni "1 mart" işi üzrə KTMT-nin yüksək vəzifə sahibi olan Xaçaturova qarşı ittiham irəli sürülməsindən sonra razılaşdırıblar. Başqa sözlə, bizim strateji müttəfiqlərimiz, dolayı yolla institusional səviyyədə İrəvanın fəaliyyətini tənqidi qiymətləndirərək, bu kimi hadisələrin təkrarlanmasının qanuni şəkildə qarşısını alıblar. Ermənistan, faktiki olaraq, buna razı olub. Bu da Ermənistan hakimiyyətinin "prinsipial" siyasətinin növbəti təzahürüdür. Lakin Ermənistan üçün daha böyük problemi KTMT-nin "müşahidəçi" və "tərəfdaş" statusları anlayışı yaradır. Bu addım, yayılan fikirlərə əsasən, təşkilatın qapılarının Azərbaycan və Türkiyənin üzünə açılmasıdır. Başqa sözlə, Ermənistan üçün yeni pusqular qurula bilər. Keçən il noyabrın 8-də bu məsələ Astanada müzakirə olunarkən irəli sürülən yeniliklərin Ermənistana qarşı istifadə edilməyəcəyinə dair rəsmi İrəvan zəmanət alıb, yoxsa KTMT-də bu məsələ ətrafında Ermənistana qarşı "konsensus, mənfi fikir" formalaşdırılıb? Belə çıxır ki, rəsmi İrəvan ümumi nəzər nöqtəsinə alternativ çıxış yolu olmadığına görə buna razı olub. Aydındır ki, KTMT-də əsasnamə dəyişiklikləri Moskvanın təşəbbüsü ilə həyata keçirilir. Və sual yaranır, bu dəyişikliklər inqilabçı Ermənistanı cəzalandırmaq, yoxsa daha qlobal məqsəd daşıyır?". "1in.am" nəşri qeyd edir ki, Azərbaycan və Türkiyənin hər hansı formada təşkilatda təmsil olunması Ermənistanın bu qurumda sonunun gəlməsi deməkdir.

Ekspertlər də qeyd edir ki, belə bir hadisə baş verərsə, Ermənistanın KTMT ümidləri Bakı tərəfindən tam alt-üst olunacaq. Burada bir məqamı da xatırladaq ki, Azərbaycanın da KTMT-nin yaranmasında rolu olub. Azərbaycan 1993-cü ilin sentyabrında Kollektiv Təhlükəsizlik Müqaviləsini beş il müddətinə imzalayıb. Lakin beş ildən sonra Azərbaycan bu müqaviləni uzatmayıb. İndi isə vəziyyət Ermənistanın istəmədiyi istiqamətdə əhəmiyyətli dərəcədə dəyişə bilər. Bunu Belarusdan olan siyasi icmalçı Roman Yakovlevski də istisna etmir. Onun sözlərinə görə, əvvəllər Ermənistanda Azərbaycanla müharibə vəziyyətində KTMT-nin köməyindən danışırdılar. Amma bu qətiyyən mümkün olan məsələ deyil və Azərbaycanın təşkilata gəlişi Ermənistan üçün böyük zərbə deməkdir: "KTMT-nin öhdəliklərinə görə, bu təşkilatın üzvləri bir-birinə yardım etmək, bir-birini qorumaq məcburiyyətindədir. Lakin mövcud reallıqlarda danışdığınız yardım sadəcə mümkün deyil. Bu yardım üçün bütün KTMT üzvlərinin razılığı tələb olunur. Bu razılıq isə yoxdur və ola da bilməz. KTMT üzvü olan Ermənistanın qonşu Azərbaycanla müharibə vəziyyətində olmasına baxmayaraq, Bakı ilə nəinki Belarus, həm də bu qurumun qalan üzvləri də hərbi-texniki əməkdaşlığı inkişaf etdirir. Azərbaycanın təşkilata üzvlüyü isə burada Ermənistanın daha arxa plana atılması deməkdir".

Beləliklə, hadisələrin inkişafı Azərbaycanın qarşıdakı dövr ərzində Ermənistana daha çox zərbə vurması anlamına gəlir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**ABŞ-ın bütün təzyiqlərinə baxmayaraq, Türkiyə Rusiyadan S-400 raketlərinin alışını başa çatdırmaq üzrədir. Artıq yaxın təzlikdə Türkiyənin Baş Qərargahlıq və Müdafiə Nazirliyi tərəfindən bu raketlərin yerləşdiriləcəyi bölgələr də açıqlanacaq. Amma Türkiyə təkcə S-400 raketlərinin alışı ilə kifayətlənmək niyyətində deyil.**

# Rusiyanın Türkiyəyə satdığı S-400-lərin Ermənistanı qorxuya saldığı məqamlar...




Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuat katibi Gülnur Aybet Demirören qeyd edir ki, Ankara hərbi müstəvidə Moskva ilə işbirliyini daha da genişləndirməyi düşünür. Onun sözlərinə görə, Ankara Rusiya istehsalı olan S-400-lərdən sonra S-500-ləri də almağı düşünür: "S-400-ləri alırıq, çünki hazırda bizə ən sərfəli təklif S-400-lərlə bağlıdır. Biz bunu qəbul etdik. Lakin bizim raket və hava hücumundan müdafiə sisteminə ehtiyacımız burada bitirmi? Xeyr. Çünki biz əslində özümüzün raket və hava hücumundan müdafiə sistemimizi qurmaq istəyirik. Bunun üçün hələ də başqa alternativlərə baxırıq. Bu arada S-500-ləri də düşünürük. ABŞ-ın "Patriot" təkliflərinə açığıq. Yəni bu iş burada bitmiş deyil. Biz texnologiyanın paylaşımı və ortaq istehsal məsələsində qərarlıyıq".

Aybet "G-20" çərçivəsində bir çox ikitərəfli görüşlərin keçirildiyini xatırladaraq, ən çox diqqət çəkən görüşün Türkiyə və ABŞ prezidentləri Rəcəb Tayyib Ərdoğan və Donald Tramp arasında keçirilən görüş olduğunu bildirib: "Prezident Tramp bizim S-400 məsələsində haqlı olduğumuzu bildirdi. Bu görüş həm ikitərəfli, həm də S-400 məsələsində çox pozitiv bir ortam yaratdı. Bu görüşdən öncə mən amerikalı rəsmilərlə danışdığımda "S-400-ü almayın, gətirməyin" kimi kəlmələr, fikirlər səsləndirirdilər. İndi isə "bəli, biz anlayırıq ki, fikrinizdən geri dönməyəcəksiniz və bu raketləri alacaqsınız. Bundan sonra münasibətlərimizdə nə edə bilərik?" deyə bildirirlər".

Bu arada onu da qeyd edək ki, Türkiyənin S-400 sistemlərini Ermənistan və Yunanıstan sərhədlərində, Egey dənizi sahillərində yerləşdirməsi daha çox ehtimal edilir. Maraqlıdır ki, Ankaranın S-400 raketləri almasından ciddi əndişə duyan tərəflərdən biri də məhz Ermənistandır. Ermənistanın müdafiə nazirinin sabiq müavini Vaqarşak Arutyunyan bu xüsusda bildirir ki, Türkiyənin S-400 sistemləri ilə təmin olunması Ermənistana baha başa gələ bilər: "Yaranmış vəziyyətə münasibət bildirmək üçün ilk növbədə problemin nədən meydana gəldiyi və S-400 anlaşmasının niyə imzalandığını dərk etmək lazımdır. ABŞ-Türkiyə münasibətlərində gərginlik çoxdan meydana gəlib. Türkiyədə baş verən çevriliş zamanı "İncirlik" bazasının Ərdoğana qarşı istifadə edilməsi bu gərginliyin əsas təməlini qoyub. "İncirlik" hərbi hava bazasında ABŞ qoşunlarının yerləşdirildiyi məlumdur və Ərdoğanın olduğu mehmanxanaya zərbə endirilməsi məqsədilə həmin bazadan təyyarələrin qalxdığı qeyd edilir və ABŞ-Ərdoğan ziddiyətlərinin əsasını həmin hadisənin təşkil etdiyi məlumdur.

Daha sonra Ərdoğanın çevrilişin təşkilatçısı hesab edilən Gülənin ABŞ-dan qaytarılmasını tələb etdikdə rədd cavabı alması bu ziddiyətləri daha da gücləndirib. S-400 vasitələrinə gəldikdə isə, Türkiyə tərəfi bəyan edir ki, ilk növbədə bənzər ABŞ istehsalı olan "Patriot" adlanan sistemin əldə edilməsi üçün ABŞ-a müraciət edilsə də, münasib şərtlər təklif edilməyib. Buna görə də Türkiyə tərəfi bənzər sistemləri Rusiya tərəfindən almağa qərar verib. ABŞ tərəfi tələb edir ki, Türkiyə rus silahlarını almaqdan imtina etsin. Onlar Türkiyəni 100 ədəd yeni nəsil F-35 qırıcılarının verilməyəcəyi ilə hədələyir. Lakin Türkiyə tərəfi artıq bunun üçün ilkin ödəniş edib.

Hazırda hər iki tərəf arasında ziddiyətlər dərinləşməkdədir. ABŞ-ın müttəfiqi və NATO-nun üzvü olan Türkiyə tarixdə dəfələrlə münasibətlərin kəskinləşməsinə rast gəlsə də, bugünədək öz məqsədlərinə çatıb". Sabiq erməni müavin qeyd edir ki, Suriya amili də bu münasibətlərdə böyük rol oynayır: "Hazırda Türkiyə Rusiya ilə birlikdə bu sahədə müvəqqəti maraqlara sahibdir. Türkiyə türk əhalisinin üstünlük təşkil etdiyi İdlib yaşayış məntəqəsini öz təsir zonasında saxlamaq istəyir və buna görə də İran və Rusiya ilə əməkdaşlıq edir. İran tərəfi də bölgədə Türkiyə kimi liderlik uğrunda mübarizə aparır". Jurnalistin "Türkiyə-ABŞ ziddiyətlərinin müvəqqəti xarakter daşıdığı və bir gün başa çatacağını nəzərə alsaq, həmin S-400 sistemlərinin Azərbaycana ötürülməyəcəyi və Qarabağ münaqişəsində istifadə edilməyəcəyinə dair hansı zəmanət var" sualına cavabında Arutyunyan bildirib: "Türkiyənin uzaq mənzilli sistemləri olmadığına görə bunu özü üçün əldə edir, Azərbaycanın isə S-300 sistemi var. S-300 sistemi bölgə üçün kifayət edir və S-400-lərin əldə edilməsinin Azərbaycan üçün heç bir əhəmiyyəti yoxdur. Belə bir anlaşmanın olacağına əsas görmürəm, əksinə, türk mütəxəssislər S-400-ləri tətbiq etmək üçün Azərbaycanda S-300-lərin istifadəsini öyrənməkdədir". "Yəni İrəvan bu anlaşma ilə bağlı Moskavaya hər hansı bir tələb irəli sürə bilməzmi" deyə verilən növbəti sualı cavablandıran Arutyunyan əlavə edib ki, ilk növbədə bu, hava hücumundan müdafiə sistemidir və ikincisi, bizim o qədər aviasiyamız yoxdur: "Azərbaycanın əlində olan hava hücumundan müdafiə sistemləri ölkənin təhlükəsizliyini təmin etməyə yetərlidir. Buna görə də, Türkiyədən hər hansı sistem götürməsinə zərurət yoxdur. Burada məsələ hərbi yox, daha çox hərbi-siyasi xarakter daşıyır. Türkiyənin bu bölgədə azad fəaliyyət göstərə bilməməsi Ermənistanın maraqlarına cavab verir. Lakin Ankaranın lider rolu uğrunda mübarizə apardığı məlumdur.

Türkiyə bu məsələdə Gürcüstan ərazisində uğurlara nail olub. Türkiyə tərəfi Gürcüstanda sərmayələr qoyur.

Hərbi-siyasi razılaşmaları var və Gürcüstanın Rusiya ilə ziddiyətlərinin olması Türkiyənin maraqlarına cavab verir. Bölgədə yalnız Ermənistan qalır ki, Türkiyə orada da tam lider ola bilsin. Rusiya ilə münasibətləri yaxşı olsa da, Moskva Türkiyənin bölgədə üstünlüyə nail olmasını arzu etmir. Lakin istənilən halda S-400-lərin bizimlə sərhəd ərazilərdə yerləşdirilməsi Ermənistan üçün problemdir. Çünki ərazimiz nəzarətdə saxlanır".

**Xatırladaq ki, bundan əvvəl də erməni tərəfi Rusiyanın Türkiyəyə S-400 satmasından ciddi narahatlıq ifadə etmişdi. Amma görünən budur ki, Ermənistanı bu məsələdə də saya salan yoxdur.**

***Tahir TAĞIYEV***

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "ABAD" publik hüquqi şəxs və Qazaxıstan Respublikasının Türküstan vilayətinin icra hakimiyyəti arasında Niyyət Protokolu imzalanıb.**

# Qazaxıstanın böyük vilayətlərindən biri Azərbaycanın modeli ilə "ABAD"laşacaq...

## *Aydın Hüseynov: "Qazaxıstanın Türküstan vilayətinin "ABAD" modelinə maraq göstərməsi Azərbaycanın uğurudur"*



Protokol "ABAD" publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev və Türküstan vilayətinin icra hakimiyyətinin müavini Meirjan Mirzaliyev arasında imzalanıb.

Sənəd Azərbaycanın "ABAD" modeli əsasında Qazaxıstan Respublikasının Türküstan vilayətində sənətkarlıq sahəsi üzrə mikro və kiçik sahibkarlığın daha da inkişaf etdirilməsi məqsədini nəzərdə tutur.

"ABAD" - Ailə Biznesinə ASAN Dəstək 2016-cı ildən, həmçinin, dekorativ-tətbiqi xalq sənətkarlığı ilə məşğul olan kiçik və orta sahibkarlara dəstək göstərir. Bu günədək "ABAD"çı-sənətkarların sayı artıq 300-ü ötüb. Sənətkarların əl işlərinin satışı üçün ölkənin fərqli coğrafi ərazilərində 9 et-no-butik fəaliyyət göstərir. Burada Azərbaycanın milli ruhunu özündə daşıyan müxtəlif məmulatlar əldə etmək mümkündür. Dekorativ-tətbiqi xalq sənətkarlığı istiqamətində özünü təkmilləşdirmək istəyən şəxslər üçün isə respublika üzrə "ABAD" məktəbləri fəaliyyət göstərirlər.

Onu da qeyd edək ki, Türküstan Böyük İpək Yolu boyunca yerləşən tarixi ərazi olmaqla yanaşı, həmçinin, Türk dünyasının mənəvi paytaxtı hesab olunur. 2019-cu ilin sonunadək Türküstan vilayətində Böyük İpək Yolunun Ənənəvi Sənətkarlıq Mərkəzinin açılması nəzərdə tutulur. Layihəyə əsasən, mərkəzdə Türk dünyasını təmsil edən sənətkarlar orada yaşayaraq öz peşələri üzrə fəaliyyətlərini davam etdirəcəklər.

Niyyət Protokolu bu və digər layihələrdə "ABAD" və Türküstanın Böyük İpək Yolu Ənənəvi Sənətkarlıq Mərkəzi arasında təcrübə mübadiləsini nəzərdə tutur.

Görünən odur ki, Qazaxıstanın Türküstan vilayətində Azərbaycanın "ABAD" modeli tətbiq ediləcək. Bu, sözügedən modelin özünü doğrultmasının göstəricisidir ki, artıq digər ölkələr də buna maraq göstərirlər.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, Qazaxıstanın Türküstan vilayətinin "ABAD" modelinə maraq göstərməsi Azərbaycanın uğurudur:** "Əvvəla "ASAN xidmət" bir Azərbaycan brendi olaraq bir çox ölkənin diqqətini cəlb edib. Bəzi ölkələr bu modelin öz ölkələrində tətbiqini nəzərdən keçirirlər. Bununla bağlı Azərbaycanda sözügedən modelin iş prinsiplərini öyrənirlər. Bu o deməkdir ki, artıq bu özünü doğrultmuş mütərəqqi bir modeldir. Çünki bu model müasir tələblərə cavab verdiyi üçün buna maraq artıb. Digər tərəfdən, bu model sayəsində əməliyyatlar operativ şəkildə həyata keçirilir. İnsanlar vaxta qənaət edirlər. Burada bir çox digər faktor da özünü göstərir. Qazaxıstanın məhz "ABAD" modelinə maraq göstərməsi bütün bunların nəticəsidir. Bunun sayəsində Qazaxıstanın Türküstan vilayətində sənətkarlıq sahəsi üzrə mikro və orta sahibkarlığın daha da inkişafı üçün yeni imkanlar açılacaq. Ailə biznesinin inkişafına stimul verəcək. Hesab edirəm ki, Türküstan vilayətində bu nümunənin tətbiqi sonrakı dövrlərdə Qazaxıstanın digər vilayətlərində də "ABAD" modelinin tətbiqinə şərait yaradacaq".

*"Bunun sayəsində sənətkarlıq sahəsi üzrə mikro və orta sahibkarlığın daha da inkişafı üçün yeni imkanlar açılacaq"*

***Vidadi ORDAHALLI***

**Məlumata görə, Azərbaycan banklarlarının əksəriyyəti 500 avroluq pul nişanının qəbuluna 1 faizlik komisyon haqqı müəyyənləşdirib. Bu o deməkdir ki, vətəndaş 500 nominallı avro əskinası ilə əməliyyat aparırsa, o zaman əlavə olaraq 1 faiz ödəməlidir. Məsələn, 500 əskinaslıqlardan ibarət olan 50 min avronu hesabında yerləşdirmək istəyən vətəndaş həmin 500 avrodan birini banka "hədiyyə" etmək məcburiyyətindədir.**

# Bəzi bankların orijinal qazanc mənbəyi - avro əmanətlərinə 1 faiz komissiya haqqı...

## *Fikrət Yusifov: "...heç bir məntiqə və qaydalara söykənmir"*



Bankların tədavüldə istifadəsi davam edən əskinas üçün əlavə ödəniş müəyyənləşdirməsi bir daha göstərir ki, əksər banklarımızı sadəcə, necə olur-olsun, gəlir əldə etmək maraqlandırır. Halbuki, bir müddət öncə Azərbaycan Mərkəzi Bankı 500 nominallıq avro əskinaslarının ölkədaxili istifadəsi ilə bağlı heç bir problemin olmadığını bəyan edib.

Bütövlükdə, bankların heç bir iqtisadi əsas olmadan bu tip komisyon haqları müəyyənləşdirməsi, sadəcə, müştəri üçün əlavə xərc yaratmağa hesablanır. Bank xərclərinin azaldılmasının müzakirə edilməsinə baxmayaraq, hələ də əksər bank xərc artırmağı hədəfləyib.

O da məlum olub ki, Avropa Mərkəzi Bankı 4 may 2016-cı il tarixdə 500 avro nominallı əskinasın istehsalının dayandırılması və 2018-ci ilin sonlarından isə bu nominalın təkrar tədavülə buraxılmaması ilə bağlı qərar qəbul edib. Bununla yanaşı, Avropa Mərkəzi Bankı tərəfindən 500 avroluq pul nişanının bütün kommersiya strukturlarının mədaxil və məxaric əməliyyatlarında qalmasına icazə verilib. Bütün digər nominallı avro əskinaslar kimi onun da daim öz nominal dəyərini saxlayacağı və müddətsiz olaraq Avrosistemə daxil olan mərkəzi banklar tərəfindən dəyişdiriləcəyi qeyd olunub. Avropa Mərkəzi Bankının və hətta Azərbaycan Mərkəzi Bankının açıqlamalarına baxmayaraq, əksər bank müştərilərin xərci hesabına yeni gəlir mənbələri axtarışını davam etdirir. Təbii ki, bu, bankların müştərilərə qarşı soyğunçuluğudur.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisad elmləri doktoru Fikrət Yusifov bankları kəskin tənqid etdi:** "Bankların 500 avroluq əskinaslara görə 1 faiz komisyon haqqı tutmaları heç bir məntiqə və qaydalara söykənmir. Bu nə yazılmış, nə də yazılmamış qaydalara uyğun deyil. Sadəcə olaraq bir sra sahələrdə özbaşınalıq edən özəl banklar bu məsələdə də analoji özbaşınalıqlara yol verirlər. Banklar istəyirlər ki, hər şeydən pul qazansınlar. Ancaq hər şeydən pul qazanmaq mümkün deyil axı. Məxsusən də bank fəaliyyətində. Bu gün 500-lük avrolar dövriyyədədir. Sözügedən pul nişanları Avropa İttifaqının rəsmi valyutasıdır. Eyni zamanda, dünyanın ikinci valyutasıdır. Ona görə də bankların bu cür siyasət yeritməsi heç nədən pul qazanmaq tamahkarlığıdır. Belə yanaşma heç bir banka nüfuz və hörmət gətirməz. Avronun sahibi bilsə ki, Azərbaycanda hansısa banklar onların pul əskinasları ilə bu cür alver edir, onlar da buna neqativ münasibət bəsləyərlər. Hesab edirəm ki, bu, yaramaz bir işdir. Bu heç nədən düşüncəsiz bir formada pul qazanmaq məqsədi daşıyır. Fikrimcə, Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası sözünü deməlidir və belə vəziyyətə son qoyulmalıdır. Bu cür hal Azərbaycanın bank sistemi üçün ayıbdır".

*"Bankların bu cür siyasət yeritməsi heç nədən pul qazanmaq tamahkarlığıdır"*

***Vidadi ORDAHALLI***

# "Qara arxeologiya baronları" Azərbaycanda daha bir antik tikilini dağıdıblar

**Fariz Xəlilli:** *"Problemdən çıxış yolu Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin ölkə ərazisində olan bütün abidələri müəyyən etməsidir"*

**Arxeoloji abidələrin mühafizəsi yalnız dövlət və aidiyyəti qurumlar tərəfindən həyata keçirilməli deyil. Bu məsələdə ictimaiyyət də kifayət qədər diqqətli olmalıdır. Bölgələrdəki tarixi, arxeoloji abidələrin mühafizə edilməsi sahəsində ictimaiyyətin hər hansı bir fəaliyyəti diqqəti çəkmir.**

Çox təəssüf ki, Azərbaycanda vətəndaşların abidələrə münasibəti elə də isti deyil. Elə bunun nəticəsidir ki, bir sıra bölgələrimizdə qədim tarixə malik olan abidələrin vətəndaşlar tərəfindən dağıdıldığını müşahidə edirik.

"Xəzinə axtaran" vətəndaşlarımız bir qədər gözdən uzaq olan, elə də ciddi nəzarət altında saxlanmayan abidələrimizə qarşı vandalizm hərəkətləri törədirlər. Analoji hal Ağstafada da baş verib. Yayılan məlumatlara görə, Ağstafada səkkiz min il tarixi olan, ümumi Qafqazda ən qədim arxeoloji qazıntı sahəsi dağıdılıb. Məlumatlara görə, 2012-ci ildən başlayaraq AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqları rayon ərazisində tapılan qədim yaşayış məskənində qazıntı işləri aparıblar. Ərazidən tapılan maddi mədəniyyət nümunələrinin tədqiqindən sonra bəlli olub ki, qədim yaşayış sahəsi Neolit dövrünə aiddir. Bu abidə haqqında elmi ədəbiyyatlarda məlumatlar da dərc edilib. Həmin faktlar əcnəbi arxeoloqların da diqqətini cəlb edib. Lakin arxeoloqlar növbəti dəfə əraziyə gəldikdə xoşagəlməz halla qarşılaşıblar. Təəssüf ki, indi həmin ərazidə tapılan şəhərcikdən iz qalmayıb, çünki o texnika vasitəsilə tamamilə dağıdılıb. Hazırda ərazini dağıdan şəxs və ya şəxslər barəsində institut tərəfindən hüquq-mühafizə orqanlarına müraciət edilib.

Buradan tapılan mindən çox maddi mədəniyyət nümunəsi isə AMEA-da saxlanır. Artıq ərazidə yenidən tədqiqat və ya qazıntı aparmaq mümkün deyil.

Ağstafada tarixi abidənin sökülməsi ilə bağlı artıq araşdırmalara başlandığı bildirilir. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mətbuat katibi Fariz Hüseynovun sözlərinə görə, araşdırmaların sonunda müvafiq addımlar atılacaq: "Hazırda Ağstafa rayonu ərazisində olan tarixi abidənin dağıdılması ilə bağlı Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən araşdırma aparılır. Aparılan araşdırmalardan sonra müvafiq qaydada addımlar atılacaq".

F.Hüseynovun bildirdiyinə görə, həmin abidə dövlət tərəfindən mühafizə olunan daşınmaz tarixi mədəniyyət abidələri siyahısında qeydiyyata alınmayıb: "Bu səbəbdən də həmin ərazi diqqətdən kənarda qalıb, ona yerli mühafizəçilər tərəfindən nəzarət olunmayıb".

**MİRAS-Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru, maddi irs üzrə tanınmış mütəxəssis Fariz Xəlilli "Bakı-Xəbər"ə bildirdi ki, ölkəmizdə vətəndaşların abidələrimizə qarşı həyata keçirdikləri bu cür xoşagəlməz halların baş verməsi bu abidələrin böyük əksəriyyətinin dövlət qurumu tərəfindən qeydiyyata alınmaması ilə bağlıdır.** "Bu böyük bir problemdir. Arxeoloji abidələrin hələ çox hissəsi üzə çıxarılmayıb, öyrənilməyib, qeydiyyata alınmayıb. Bu da sözügedən halların baş verməsinə rəvac verir. Amma, əslində, Azərbaycanda 2001-ci ildən sonra abidələrin müəyyənləşdirilməsi ilə bağlı hər hansı bir kompleks tədbir həyata keçirilməyib. Bunun da nəticəsində Azərbaycanda nə qədər arxeoloji abidənin mövcud olması, harada yerləşməsi dəqiqləşdirilməyib. Biz abidələrimizlə bağlı bu məsələdə gecikmişik. Ölkənin bütün ərazisində abidələrin yerləri müəyyən edilməli, xüsusi işarələr qoyulmalıdır ki, harada nələrin olduğu bilinsin. Vətəndaşların abidələrə qarşı bu cür münasibəti abidələrin qeydiyyatı sahəsində olan problemlərlə bağlıdır. Bu problemi birdəfəlik həll etmək lazımdır. Yəni gözləmək olmaz ki, hardansa, nə vaxtsa təsadüfən arxeoloji abidələr üzə çıxacaq. Burada istər Akademiyanın Arxeologiya və Etnoqrafiya İnstitutu, yaxud bu qurumun digər aidiyyəti qurumları olsun, istərsə də Mədəniyyət Nazirliyinin dövlət xidməti olsun, onlar bu məsələni həll etməlidirlər. Əks halda, hər yerdə belə abidələr üzə çıxa bilər. Vətəndaşlara gəlincə, əlaqədar qurumlar problemi həll etmir və hadisə baş verəndə vətəndaşı günahkar görürlər. Vətəndaşlarla da maarifləndirmə işi lazımi səviyyədə aparılmır. Biz bir neçə dəfə mədəni irsə ictimai münasibətlə bağlı monitorinq keçirmişik. Baxıb görmüşük ki, doğrudan da vətəndaşlar bir çox qanunlardan, eləcə də tarixi məsələlərdən xəbərsizdirlər. Nə üçün arxeoloji abidələrin yerləşdikləri ərazilər vətəndaşlar tərəfindən qazılır? Əlbəttə, düşünürlər ki, həmin abidələrin ərazisində xəzinə gizlənib. Kasıb təbəqə varlanmaq üçün, varlı şəxslər də hansısa bir tarixi eksponata sahib olmaq üçün bu yola əl atır. Vətəndaşlar tərəfindən belə abidələr dağıdılır. Bunun da bir səbəbi yerlərdə həmin abidələrə nəzarət edəcək şəxslərin o abidələrdən xəbərsiz olmasıdır. Bilmirlər ki, orada hansı abidələr var. Şəxsən mən özüm dəfələrlə bunu müşahidə etmişəm. Ağsuda olarkən abidə mühafizləri ilə əraziyə baxış keçirmək istəmişəm, onların bir çoxu heç arxeoloji abidələrin yerini bilmirdi. Bəzən ərazilərdə qazıntı aparan arxeoloqlar da qazıntını aparıb raport verdikdən sonra öz işlərini bitmiş hesab edirlər, onlar həmin abidələri nəzarətdə saxlamırlar. Şəxsən mən bir arxeoloq, tarixçi kimi harada nə problem görürəmsə, onunla bağlı ilk növbədə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə məlumat verirəm, ikincisi də ərazidə qazıntı aparmaq istəyən vətəndaşları tarixi abidələrin mühafizəsi ilə bağlı maarifləndirirəm, sonra da ictimailəşdirirəm. Ağstafada işləyən arxeoloqlar çox sağ olsunlar ki, vətəndaş mövqeyi göstərərək bu məsələyə həssas yanaşıblar və onu ictimailəşdiriblər. Ümumiyyətlə, hər zaman abidələrin dağıdılması məsələlərinə diqqət olunmalıdır. Onları dağıdan insanların çoxu ilə söhbət edəndə görürsən ki, bu adamlar tarixdən xəbərsizdir və onların abidə haqqında məlumatları yoxdur. Vətəndaşlar başa düşmürlər ki, Neolit dövründə hansı qızıl, yaxud digər dəyərli əşya üzə çıxa bilər ki, bu ondan hansısa maddi mənfəət götürə bilsin. Neolit dövrü abidəsindən belə materiallar üzə çıxa bilməz. Sadəcə, həmin ərazidə dağıntı aparan insanlar o abidənin dövründən xəbəri olmayıb. Düşünürəm ki, problemdən çıxış yolu Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin ölkə ərazisində olan bütün abidələri müəyyən etməsidir. Dövlət Xidməti müəyyən etməlidir ki, hansı yeni abidələr var. Qurum tərəfindən ölkəmizdəki bütün abidələr haqqında məlumatlar toplanmalır. Hesab edirəm ki, arxeoloji abidələrlə bağlı xüsusi dövlət proqramı qəbul edilməli və bu proqram əsasında ölkə ərazisindəki bütün mülklərdə, torpaqlarda yerləşən abidələr müəyyən olunmalıdır. Başlıcası isə abidələrin qorunması, dağıdılmaması ilə bağlı vətəndaşlar arasında maarifləndirmə işi gücləndirilməlidir.



*"Vətəndaşların abidələri dağıtmaması üçün bu istiqamətdə aidiyyəti qurumların nəzarəti gücləndirilməlidir"*

Dövlət Xidmətinin gördüyü işləri təqdir edirəm. Lakin maarifçilik sahəsində xidmətin stimulverici hansısa layihəni maliyyələşdirməsini görməmişəm. Xidmət bu sahədə olan təşkilatları işə cəlb etməli və onların fəaliyyətini az da olsa maliyyələşdirməklə maarifçilik işlərini genişləndirməlidir. Digər tərəfdən də, vətəndaşların abidələri dağıtmaması üçün bu istiqamətdə aidiyyəti qurumların nəzarəti gücləndirilməlidir" -deyə F.Xəlilli qeyd etdi.

***İradə SARIYEVA***

**Azərbaycanın ənənəvi aqrar sahələrindən biri də çayçılıqdır. Ölkəmizdə çayçılığın bir əsrdən artıq tarixi var. Artıq ölkəmizdə istehsal olunan çay məhsulları xarici ölkələrdə də məşhurdur. Ancaq buna baxmayaraq, hələ də ölkəmizə çay idxal olunur.**

# Azərbaycanın öz çayına nə gəlib ki, idxal iki dəfə artıb...



***Nicat Nəsirli:** "Son illər Azərbaycanda təxminən 1000 hektardan çox ərazidə çay bağları salınıb"*

Açıqlanan statistik rəqəmlərə əsasən, bu ilin yanvar-may aylarında Azərbaycan 19 milyon 539 min dollar məbləğində 5 min 134 ton çay idxal edib. Azərbaycan Dövlət Gömrük Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, ötən ilin 5 ayı ilə müqayisədə çay idxalı dəyər ifadəsində 279 min dollar (1,45%), miqdar ifadəsində isə 145 ton (2,90%) artıb. Yanvar-may ayları ərzində çay idxalı Azərbaycanın ümumi idxalının 0.33%-ni təşkil edib.

Bu ilin 5 ayında Azərbaycan 3 milyon 690 min dollar dəyərində 580 ton çay ixrac edib. Ötən ilin 5 ayında isə Azərbaycan 3 milyon 967 min dollar dəyərində 588 ton çay ixrac edib.

Beləliklə, Azərbaycanın çay idxalı ixracını dəfələrlə üstələyib. Ölkəmizdə çay istehsal olunmasına, Azərbaycan çayçılığının məşhurluğu ilə digər ölkələrdən seçilməsinə baxmayaraq, hələ də ölkəmizə çay idxal olunur.

Qeyd edək ki, "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı" imzalanıb. Proqramın imzalanmasında məqsəd ölkədə quru çaya olan tələbatın əsasən yerli məhsul hesabına ödənilməsi, çay emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, çay məhsullarının ixracının artırılması və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün çayçılığın inkişafını stimullaşdırmaqdır.

**Azərbaycana çay idxalının artması səbəbləri barədə açıqlama verən aqrar sahə üzrə ekspert Nicat Nəsirli qeyd etdi ki, çay texniki bitkidir və məhsula düşmə dövrü 7-10 il götürülür:** "Bu sahə uzunmüddətli investisiya tələb edən sahədir. Çay bitkisi 50 il durmadan məhsul verə bilir. Sovet dövründə Azərbaycanda çayçılıq sənayesi çox ciddi inkişaf edib. 1990-cı illərdə iqtisadi münasibətlərin pozulması nəticəsində çay bağları diqqətdən kənarda qaldı, çoxları çay bağlarını ləğv etdi, çünki bunların çoxu qocalmışdı. Çay bağlarının yerinə daha tez məhsul verən sitrus və digər məhsul bağları salındı. 2010-cu ilədək Azərbaycanda çayçılıq ağır vəziyyətdə idi və çay istehsalı aşağı olub".

*"Kiçik fermerlər bu sahəyə investisiya qoya bilmirlər, çünki investisiya qoyub 7-8 il gözləmək mümkün deyil"*

Həmsöhbətimizin sözlərinə görə, 2018-ci ildə "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı" qəbul edilib: "Dövlət Proqramının icrası nəticəsində 2027-ci ilədək əkin sahələrinin 3 min hektara, yaşıl çay yarpağı yığımının 8,5 min tona çatdırılması nəzərdə tutulur. Proqramın həyata keçirilməsi ölkəmizdə çayçılıq ənənələrinin inkişaf etdirilməsinə, çaya olan daxili tələbatın ödənilməsinə və idxaldan asılılığın azaldılmasına təsir edəcək. Çay bitkisi əkilən kimi məhsul vermir. Son illər Azərbaycanda təxminən 1000 hektardan çox ərazidə çay bağları salınıb. Hələ ki, o bağlar məhsula düşməyib".

Ekspert onu da vurğuladı ki, çayçılıq sahəsi investisiya tələb edən sektordur: "Kiçik fermerlər bu sahəyə investisiya qoya bilmirlər, çünki investisiya qoyub 7-8 il gözləmək mümkün deyil. Bu sahəyə yalnız iri şirkətlər investisiya qoymalıdırlar. Son vaxtlar Astara, Lənkəranda müasir çay müəssisələrinin yaradılması prosesi gedir. Çay bazarında ciddi rəqabət var. Əsasən çayımız Şri-Lankadan gəlir. Hətta yerli çay istehsalını artırsaq belə, hökmən bazarın qorunması siyasəti həyata keçirilməlidir ki, çayımızı bazarda sata bilək. Azərbaycan çayı ekoloji baxımdan təmiz çaydır. Çayçılıq çox gəlirli sahədir və əməktutumludur. 1 hektar çay bağında orta hesabla 160-200 nəfər il ərzində işləyə bilir. Ona görə də dövlət bu sahənin inkişafında maraqlıdır. Məlumdur ki, çayçılıq daha çox ölkəmizin cənub və qərb bölgəsi üçün xarakterikdir. Çay emalı sənayesi inkişaf etdirilməlidir. Çay texniki bitkidir və emal prosesindən keçməlidir. Çay yığılan kimi istehlaka göndərilmir. Mütləq emal sənayesi qurulmalıdır. Çay bağlarını artırsaq belə, müasir emal müəssisələri olmalıdır və bu, kompleks həyata keçirilməlidir. Bu olsa, daxili tələbatı ödəyə bilərik. Azərbaycanın çayçılıq sənayesi kompleks xarakter daşımalıdır".

*Günel CƏLİLOVA*

---

**Günümüzdə gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsi, onların vətənpərvər ruhda və Azərbaycançılıq ideologiyası əsasında böyüdülməsi, tərbiyə edilməsi dövlətin qarşısında duran əsas prioritetlərdəndir. Diqqət çəkən müsbət məqamlardan biri ondan ibarətdir ki, son illər bu istiqamətdə dövlət qurumları ilə yanaşı, həm də qeyri-hökumət təşkilatları səviyyəsində təqdirəlayiq addımlar atılır.**

# Gənclərin vətənpərvər ruhda tərbiyə olunmasında qeyri-hökumət təşkilatları mühüm vasitəyə çevrilir




Gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsi, onların vətənpərvər ruhda, Azərbaycançılıq ideologiyası əsasında böyüdülməsi istiqamətində keçirilən çoxsaylı layihələr, tədbirlər bunun əyani sübutudur.

Etiraf etmək lazımdır ki, Azərbaycan tarixində ikinci dəfə müstəqillik əldə etdikdən sonra, bütün sahələrdə olduğu kimi, gənclərlə iş sahəsində də müəyyən problemlər mövcud idi. Dövlət idarəçiliyi sahəsində mövcud olan müəyyən boşluqlar bir sıra qeyri-ənənəvi dini sektalar, missioner təşkilatların ölkəmizə ayaq açmasına, gəncləri öz torlarına salmasına gətirib çıxardı. Nəticə etibarilə Azərbaycan gənci getdikcə millət, Vətən sevgisindən uzaq düşürdü. Digər tərəfdən, ölkədə yaşayış səviyyəsinin pisləşməsi gənclərimizin dolanışıq ardınca xaricə, daha çox şimal qonşumuza üz tutmasına səbəb olurdu. Nəticə etibarilə, yuxarıda qeyd etdiyim kimi, gənclər arasında vətənpərvərlik hissləri tədricən ölürdü. Lakin 1993-cü ilin iyun ayında Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi gənclərlə iş sahəsində də məqsədyönlü tədbirlər həyata keçirilməyə başlanıldı. Çox keçmədən, 1994-cü ilin iyul ayında gənclərlə əlaqəli şəkildə işləyən müvafiq dövlət qurumu, Gənclər və İdman Nazirliyi yaradıldı. 1996-ci il, fevral ayının 2-də isə Heydər Əliyevin iştirakı ilə Azərbaycan gənclərinin birinci forumu keçirildi. Qısa müddətdə qəbul edilən bir sıra fərman və sərəncamlar, müvafiq sənədlər gənclərin mütəşəkkilliyinin, onların ölkənin ictimai-siyasi həyatında rolunun artmasına gətirib çıxardı. Məhz dövlətin ona ciddi diqqət və qayğı ilə yanaşdığını görən gənc də öz növbəsində Vətənini, dövlətini, millətini daha çox sevməyə başladı.

Günümüzdə torpaqlarımızın 20 faizinin ermənilər tərəfindən işğal olunduğu, bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini nəzərə alsaq deyə bilərik ki, gənclərin vətənpərvər ruhda tərbiyəsini daha da artırmalıyıq. Xüsusilə bu proses bağçadan başlayaraq orta məktəb, hətta ali məktəbdə də davam etməlidir. Gənclərimiz tarixin müxtəlif dövrlərində yaşamış və ad qoymuş tarixi şəxsiyyətlərimiz, sərkərdələrimizi, milli qəhrəmanlarımızı yaxından tanımalı, onların həyat yolu, Vətən uğrunda apardıqları mübarizəni dərindən öyrənməlidirlər. Heç şübhəsiz ki, bu biliklər gənclərimizə təhsil ocaqlarında aşılanmalıdır. Düzdür, ümumtəhsil müəssisələrində gənclərə bu istiqamətdə məlumatlar verilir. Ancaq hesab edirəm ki, gənclərimiz daha çox məlumatlandırılmalıdırlar. Eyni zamanda gənclər arasında müntəzəm olaraq maarifləndirici xarakter daşıyan işlər görülməli, tədbirlər keçirilməlidir.

*Süleyman*

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

# Hələ də Bakı qəbiristanlıqları məzar yerləri satmaqda davam edir

**El arasında belə bir məsəl var: bu dünyada insana beş metr kəfən və bir qarış da torpaq qalır. Bunu deyən əcdadlarımızın ağlına da gəlməzdi ki, indiki zəmanədə ölmək də "pullu" olacaq, mərhum isə özü ilə o biri dünyaya həm də qəbir üçün ayrılmış sahə şəklində "daşınmaz əmlak aparacaq". Bu gün ölmək böyük xərclər tələb edir.**




## *İsmayıl Əhməd: "...bütün səlahiyyətlər bələdiyyələrə təhvil verilsə..."*

Belə ki, yas mərasimi üçün nəzərdə tutulan xərclərdən əlavə, əsas olaraq qəbir üçün ayrılan yerlərin qiymətinin baha olması yaxını vəfat edən şəxsi ciddi şəkildə narahat edir.

Azərbaycan qanunvericiliyinə görə, hər bir vətəndaş həyatda olduğu vaxt etiqad etdiyi dinin tələbləri əsasında dəfn olunmalıdır. Məsələn, Bakıda xüsusi olaraq bu məqsədlə Əhaliyə Vətəndaş Xidməti Tresti yaradılıb. Adıçəkilən trestin tabeliyində paytaxtın müxtəlif yerlərində yerləşən 25 qəbiristanlıq yer alır. Vətəndaşın ölümündən sonra onun yaxınları müəyyən sənədləri təqdim etdikdən sonra "Sosial ödənişlər haqda" Qanuna əsasən, dövlətdən 160 manat vəsait alırlar.

Trestin yaydığı məlumatda qeyd olunur ki, müsəlman üçün bir qəbrin rəsmi qiyməti 63, qeyri-müsəlman üçün isə 79 manat təşkil edir. Ancaq reallıqda mənzərə tam başqadır. Belə ki, qəbiristanlıqlarda qəbir yerlərinin qiyməti ərazidən asılı olaraq dəyişir.

1. Yasamal - qəbir üçün yer - 7000-9000 manat, 2. Xırdalan - 800-1500 manat (dörd qəbir yeri "paketi" isə 2500-ə başa gəlir), 3. Masazır - 500 manat, 4. Biləcəri - 500 manat (hazır, qazılmış qəbirlə birlikdə 800 manat), 5. Badamdar - 500 manat, 6. Ramana - 250 manat, 7. Hövsanda 800-1000 manat, 8. Binəqədi 2500-3000, 9. Qaraçuxur 2000-2500 manat.

Qeyd etdiyimiz kimi, qəbir yerlərinin rəsmi qiyməti 63 manata olduğu halda, vətəndaşlardan bir neçə qat artıq pul tələb olunur.

**Dinşünas İsmayıl Əhməd "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qəbiristanlıqlarda vətəndaşlardan məzar yeri üçün təyin olunan rəsmi məbləğdən qat-qat artıq pul istəyirlər.** Qanunvericiliyə görə, məzar yerlərinin rəsmi qiyməti 63 manat olduğu halda, vətəndaşdan avtomobilin dəyərində vəsait tələb olunur.

*"Qanunvericiliyə görə, məzar yerlərinin rəsmi qiyməti 63 manat olduğu halda, vətəndaşdan avtomobilin dəyərində vəsait tələb olunur"*

Ekspert bildirdi ki, məzar yerlərinin vətəndaşlara pulla satılması bölgələrdə deyil, paytaxt ərazisində müşahidə olunur: "Qəbiristanlıqların hansı qurumun balansında olduğu araşdırılmalıdır. Məzar yerləri vətəndaşlara pulla verilərkən onlara sənəd verilməlidir. Qəbir yeri vətəndaşa yalnız şifahi danışıq əsasında müəyyən məbləğ qarşılığında verilir. Bu isə qanunsuzdur".

Həmsöhbətimizin sözlərinə görə, məzar yerləri vətəndaşlara verilərkən rəsmi məbləğdən artıq pul istənilməsi barədə aidiyyəti qurumlar araşdırma aparmalıdırlar. Bu məsələ rəsmi şəkildə araşdırılmalı, qanunvericiliyin tələbinə əməl etməyənlər cəzalandırılmalıdırlar.

Ekspertin fikrincə, məzar yerlərinin qiymətinin baha olması ilə bağlı bu günə kimi hər hansı bir quruma şikayət edilməyib: "Hesab edirəm ki, məlum məsələ ilə bağlı bütün səlahiyyətlər bələdiyyələrə təhvil verilsə, vətəndaşlar qanunsuz tələb olunan məbləğə görə bələdiyyəyə şikayət edə bilərlər.

Məlumdur ki, dəfn üçün müavinət 120 manat qəbul olunub, lakin bu rəqəm tələb olunan məbləği ödəmir.

*Günel CƏLİLOVA*

# Uşaqlarda piylənmə azərbaycanlıların da böyük probleminə çevrilməyə başlayır

**Bu gün artıq çəki nəinki böyüklər, hətta uşaqlar üçün də aradan qaldırılması çətin olan problemə çevrilib. Uşaqlar arasında piylənmə hallarının artması gerçək qlobal problem kimi bütün aidiyyəti beynəlxalq qurumları narahat edir.**



## *Sevinc Xasayeva: "Uşaqlar arasında piylənmə problemi bütün ölkələrdə təhlükəli bir tendensiya yaradıb"*

İndiyə qədər dünyanın bir sıra elmi-tədqiqat institutları uşaqlarda sıx-sıx rast gəlinən piylənmənin yaranma səbəblərini araşdırırlar. Azərbaycan uşaqları arasında da geniş yayılan piylənmə ilə mübarizədə hələ də dünya səhiyyəsi qalib gələ bilmir.

BMT-nin son günlər yaydığı hesabatda da uşaqlar arasında piylənmə halları ilə bağlı narahatlıq əks olunub. Hesabatda qeyd edilir ki, dünya boyu bütün yaş qruplarında, beş yaşadək uşaqlar da daxil olmaqla, artıq çəki və piylənmə halları artıb. "Artıq çəki bütün yaş qruplarında artmaqdadır. 2018-ci ildə 40 milyon 5 yaşadək uşaq artıq kilodan əziyyət çəkib, yəni dünyada beş yaşadək olan bütün uşaqların 5,9 faizi. Ən çox artıq çəkidən və piylənmədən əziyyət çəkən 5 yaşadək uşaqlar Şimali Afrika və Qərbi Asiyada qeydə alınıb" - deyə hesabatda bildirilir.

Təşkilat vurğulayır ki, həmin uşaqlarda tibbi və psixoloji problemlər daha çox olur. Hesabata görə, keyfiyyətsiz qidalanma piylənmə, həm də geniş yayılmış bir problemə - kifayət qədər yeməməyə səbəb olur.

**Pediatr Sevinc Xasayeva bizimlə söhbətində bildirdi ki, ümumiyyətlə, uşaqlar arasında piylənmə halları Azərbaycanda da mövcuddur. S.Xasayevanın sözlərinə görə, bu hal son 30-40 ildə özünü daha qabarıq şəkildə göstərməyə başlayıb.** Onun bildirdiyinə görə, son 40 il ərzində piylənmə əmsalı 10 dəfə artıb, bu isə 100 milyon oğlan və qızın hazırda aşırı kök olduğu deməkdir. Mütəxəssis hesab edir ki, bununla bağlı aparılan tədqiqatlar uşaqlar arasında piylənmənin səbəblərini ortaya çıxarıb. O qeyd etdi ki, beynəlxalq institutların tədqiqatlarının üzə çıxardığı nəticələrə görə, Azərbaycanda qızlar arasında piylənmə 4.4 faiz, oğlanlar arasında isə 5.3 faiz təşkil edir. Dünya Piylənmə Federasiyasına istinad edən həkim bildirdi ki, piylənmə səbəbindən əmələ gələn xəstəliklərin müalicəsinə 2025-ci ildən başlayaraq hər il dünya üzrə təxminən 1213 milyard dollar xərclənəcək. O hesab edir ki, uşaqlarda piylənmə halları azalmaq əvəzinə, ildən-ilə artır. "2000-ci ildə pik səviyyəyə çatdıqdan sonra çəkisi normadan az olan qız və oğlanların sayı dünyada ildən-ilə azalmağa doğru dəyişir. Bu gün təəssüf ki, Azərbaycan uşaqlarında da bu hal mövcuddur. Ölkəmizdə də piylənmədən əziyyət çəkən körpələr, uşaqlar və yeniyetmələr var ki, pediatrlar onlarla davamlı olaraq işləyirlər. Uşaqlar arasında piylənmə problemi bütün ölkələrdə təhlükəli bir tendensiya yaradıb. Uşaqların piylənməsi, diabet və ürək xəstəlikləri də daxil olmaqla, təhlükəli xəstəliklərin "cavanlaşmasına" gətirib çıxarır. Biz artıq çəkidən əziyyət çəkən uşaqların valideynlərinə tövsiyə edirik ki, çəki artıqlığının qarşısını almaq üçün uşaqların sağlam qidalanması lazımdır. Valideynlər uçaqları üçün sağlam qida rasionu müəyyən etməli, onların fiziki fəallığına çalışmalıdırlar. Piylənməyə meylli uşaqların aktivliyi əsasdır. Uşaqların saatlarla hərəkətsiz vəziyyətdə kompyuter, planşet qarşısında əyləşməsi, otura-otura yeməsi, daha çox qızardılmış yeməklərlə qidalanması piylənməni yaradan səbəblərdəndir. Uşaqlar arasında piylənmənin qarşısının alınmasında valideynlər də həkimlərin yaxın köməkçisinə çevrilməlidirlər. Biz tövsiyə edirik ki, uşaqlarınıza fastfud yeməkləri verməyin, onları "Maqdonals"a aparmayın, lakin onların çoxu həkimlərə əhəmiyyət vermir və uşaqlarını bu cür qidalandırırlar".

*"Uşaqlar arasında piylənmənin qarşısının alınmasında valideynlər də həkimlərin yaxın köməkçisinə çevrilməlidirlər"*

S.Xasayeva qeyd etdi ki, hazırda üzgüçülük hovuzlarına ən çox müraciət edənlər piylənmədən əziyyət çəkən uşaqlardır. Onun sözlərinə görə, belə uşaqların üzgüçülüyə aparılması yaxşı haldır və əksər hallarda qaydalara düzgün əməl edilərsə, fayda da verir. Lakin valideynlər uşaqlarının 45 dəqiqə, 1 saat üzməsi ilə kifayətlənməli deyillər, onlar uşaqlarını daha çox aktivliyə alışdırmalıdırlar. "Uşaq idman edir, üzür, bunun nəticəsində də enerji itirir, acır. Yemək tələb edir. Bu halda valideyn uşağına doyunca qızardılmış yemək yedirir, yaxud idmandan sonra saatlarla kompyuter önündə oturmasına şərait yaradır. Bu hala yol vermək olmaz. Köklüyə düzgün olmayan qidalanma da səbəb olur. Ayaqüstü yeməklər uşaqları kökəldir. Bəzən deyirlər ki, kökəlmə psixoloji problemdir. Bu da var. Uşaqları təbiət qoynuna çıxarmalıdırlar ki, şəhərin tünlüyündən, səs-küyündən uzaq olsunlar. Bundan başqa, bir də görürsən ki, bəzi valideynlər çəkisi az olan övladına həkim göstərişi olmadan müxtəlif vitaminlər alıb içirirlər. Bu da uşaqların piylənməsinə şərait yaradır" - deyə həkim qeyd etdi.

*İradə SARIYEVA*

# Pirşağı çimərliyində balıqları kütləvi qıran nədir...

**Son zamanlar bir sıra çimərliklərdə balıqların kütləvi ölüm halı qeydə alınır. Bir neçə gün öncə Bakının Sabunçu rayonunda, Pirşağı qəsəbəsi ərazisində yerləşən Qızılqum çimərliyində balıqların kütləvi ölümü qeydə alınıb. Analoji hal ötən ay Novxanı çimərliyində də yaşanıb. Belə ki, həmin ərazidə də ölmüş balıqlar sahilə çıxıb.**



Ekspertlərin fikrincə, balıqların kütləvi şəkildə ölməsinin səbəbi uzaq məsafədən gələn və birbaşa dənizə axıdılan kanalizasiya və çirkab sularıdır. İaşə obyektlərinin dənizə çirkab suları axıtması danılmaz faktdır. Son günlər Ekologiya və Təbii Sərvətlər Nazirliyi bir sıra qurumlarla birgə reyd keçirib. Keçirilən reydlər zamanı bəzi istirahət mərkəzlərinin dənizə çirkab su axıtması aşkar olunub. Elə bu səbəbdən də dənizdə çirkab suların həcmi artdığı üçün canlılar məhv olur.

**Məsələ ilə bağlı açıqlama verən "Azərsu" ASC-nin mətbuat katibi Anar Cəbrayıllı bildirdi ki, Pirşağı çimərliyində balıqların kütləvi şəkildə məhv olmasından xəbərdardır.** O qeyd etdi ki, problemin qarşısını almaq üçün ASC tərəfindən tədbirlər planı ha-

***Anar Cəbrayıllı:** "Pirşağıda çirkab suların dənizə axıdılmaması üçün ASC tərəfindən tədbirlər planı hazırlanıb"*

***Telman Zeynalov:** "Balıqların ölməsinin başlıca səbəbi Xəzər dənizinə çirkab suların axıdılmasıdır"*

zırlanıb. Planın əsas halqasını Pirşağıdakı bioloji təmizləyici qurğu təşkil edir və işlər gələn il yekunlaşacaq, qurğu istismara veriləcək.

**Ekoloq Telman Zeynalovun sözlərinə görə, balıqların ölməsinə başlıca səbəb Xəzər dənizinin çirklənməsidir:** "Məlumdur ki, Xəzər dənizinə son zamanlar çirkab sular ötən illərə nisbətən daha çox axıdılır. Dənizdə çirklənmə çox olanda oksigen qıtlığı yaranır. Belə olan halda, dənizdə olan canlılar oksigen çatışmazlığı səbəbindən ölməyə başlayırlar".

Həmsöhbətimiz onu da bildirdi ki, son zamanlar atmosferdə baş verən hadisələr balıqların məhv olmasına səbəb olur. Təbii ki, atmosferdə baş verən hər hansı bir hadisə oksigen qıtlığına səbəb olur. Oksigenin çatışmaması isə balıqların məhv olmasına səbəb olur.

***Günel CƏLİLOVA***

# İnsanlar arasında "sidik müalicəsi" dəhşəti...

**Son zamanlar həm efirlər, həm də sosial şəbəkələrdə müxtəlif müalicə üsulları təbliğ olunur. Bu metodları gündəmə gətirənlər hesab edirlər ki, bütün xəstəliklərin müalicəsi yalnız o vasitələrlə mümkündür. Urinoterapiya (sidiklə müalicə üsulu) da bunlardan biridir. Sidiklə müalicə üsulundan istifadə edənlər qeyd edirlər ki, 10 yaşadək uşaqların sidiyi bir sıra dərdlərə "dərmandır".**

***Rafis Bağırov:** "Sidik müalicəsinin heç bir tibbi əsası yoxdur"*



*"Sidiklə müalicə söhbətini Moloxov ortaya atıb"*

Məlumat üçün bildirək ki, qədim dövrlərdə sidiklə müalicə üsulu geniş yayılıb. Hətta bəzi tarixçilər yazırlar ki, faşist lideri Adolf Hitlerin ana babası da mütəmadi olaraq sidik müalicəsi qəbul edib. Onun əsasən azyaşlı qız uşaqlarının sidiyini içdiyi barədə yazılır.

Tibbi cəhətdən sidiklə müalicə üsulundan istifadə nə dərəcədə doğrudur? Sidiklə hansı xəstəlikləri müalicə etmək mümkündür?

**Tanınmış həkim-terapevt Rafis Bağırov "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, sidiklə müalicə metodu absurd bir şeydir və indiyə qədər heç bir mütəxəssis sidiyin müalicəvi xüsusiyyətini sübut edə bilməyib.** "Sidiklə müalicə, ümumiyyətlə, mənasız bir şeydir. Sidik müalicəsinin heç bir tibbi əsası yoxdur.

Bizim insanlarda qəribə bir xüsusiyyət var, belə əhəmiyyətsiz məsələlərə inanırlar. Elə insanlar var ki, onların sinir sistemi normal fəaliyyət göstərmədiyindən, onlar belə ekstrovaqant şeylərdən özləri üçün möcüzə gözləyirlər, sidiklə müalicə üsuluna inanırlar. Sidiklə və digər vasitələrlə müalicə üsullarından istifadə edən müəyyən həkimlər də var. Bu həkimlər sidiklə müalicə etməkdə maraqlı olan kontingentə hesablanmış addımlar atırlar. Əslində, sidiklə müalicə söhbətini Moloxov atmışdı ortaya. Mən onun kitabını götürüb bir neçə səhifə vərəqlədim ki, görüm sidiklə müalicənin əhəmiyyətini nə ilə sübut edir. Baxıb gördüm ki, onun kitabında bir dənə də olsun sübut yoxdur. Hamısı yalançı effektə hesablanmış fikirlərdir. Məsələn, filan xəstəliyin müalicəsi üçün 10 yaşında uşağın, məsələn, saat 12-də ifraz etdiyi sidiyi əhəmiyyətlidir. Adamdan soruşarlar ki, 10 yaşlı uşağın saat 12-də ifraz etdiyi sidiyin nə təsiri ola bilər? İnsanın gün ərzində qəbul etdiyi qida məhsullarının insan orqanizmini saxlayan, yaşadan, inkişaf etdirən xeyirli tərəfi bədənə sərf olunur, zərərli tərəfi, tullantı isə sidik yolu və bağırsaqla xaric olunur. Bağırsaq və sidiklə ifraz olunan, tullantı hesab edilən bir şeydən nə kimi müalicə üsulu kimi istifadə etmək olar?

*Ülvi İbrahimov isə "Mədə-bağırsaqda hər hansı ciddi problem varsa, urinoterapiya zamanı vəziyyəti daha da ağırlaşdıra, zəhərlənməyə gətirib çıxara, hətta ölüm hadisələri də baş verə bilər" deyir*

Tullanan şeylərin hamısı zərərdir. Sidiyin müalicəvi əhəmiyyətini təbliğ etmək absurddur. Mənasız şeylərə insanlar çox inanırlar, onlar sidikdən möcüzə gözləyirlər. Təkcə sidik deyil, başqa vasitələrdən də möcüzə gözləyənlər var. Məsələn, bir vaxt deyirdilər ki, ağ neftin müalicəvi əhəmiyyəti var və insanlar ağ nefti alıb bir qaşıq içirdilər. Sonra qara zirəyə, pereksə, kartof suyuna, balqabaq suyuna keçdilər. Təəssüf ki, bizim insanlar həyati təsiri olmayan vasitələrdə möcüzə axtarırlar" - deyə R.Bağırov qeyd etdi.

Qeyd edək ki, sidiklə müalicə üsulu ilə bağlı gündəmə gətirilən söhbətlər digər ekspertlər tərəfindən də normal qarşılanmır. Qastroenteroloq-hepatoloq-endoskopist Dr. Ülvi İbrahimov mətbuata açıqlamasında bildirib ki, tibbin inkişaf etdiyi bir dövrdə sidik yolu ilə müalicə üsuluna ehtiyac yoxdur: "Bunun qəti əleyhinəyəm, tibbi nöqteyi-nəzərdən heç bir sübutu yoxdur.

Bu mövzuda genişmiqyaslı elmi araşdırmalar aparılmayıb. Əldə olunan nəticələr yetərli deyil, tibbi nöqteyi-nəzərdən heç bir sübutu və dəqiqliyi yoxdur. Urinoterapiya digər ölkələrdə var, xüsusilə Hindistanda daha çox istifadə edilir.

**Lakin bu, mübahisəli məsələdir. Sidiklə müalicəni hər insan istifadə edə bilməz, mədə-bağırsağın vəziyyətindən asılıdır. Mədə-bağırsaqda hər hansı ciddi problem varsa, urinoterapiya zamanı vəziyyəti daha da ağırlaşdıra, zəhərlənməyə gətirib çıxara, hətta ölüm hadisələri də baş verə bilər. Bu dərəcədə ağır fəsadları ola bilər. Odur ki, məsələyə ciddi yanaşmaq lazımdır" - deyə mütəxəssis qeyd edib.**

***İradə SARIYEVA***

№ 121 (4019) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

11 İYUL 2019-cu il

www.baki-xeber.com

# NASA "qızıl asteroid"ə kosmik missiya göndərir



**ABŞ-ın Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyi (NASA) Mars və Yupiter planetlərinin arasında yerləşən "qızıl asteroid"i tədqiq edəcək.**

"AZƏRTAC" bildirir ki, sahəsi 225,3 kilometr olan bu göy cismi qiymətli ağır metallarla zəngindir. Psixeya adlanan bu asteroidə kosmik missiya göndərilməsi 2022-ci ilin avqustuna nəzərdə tutulub. Planetşünas ekspertlərin qənaətinə görə, bu göy cismində olan qızıl və digər qiymətli metallar Yer kürəsində bütün insanları varlı etmək üçün yetərlidir. Lakin NASA-dan bildiriblər ki, agentlik bu missiyanı gəlir əldə etmək üçün deyil, sırf elmi məqsədlərlə tədqiq edəcək. Astronomlar qeyd edirlər ki, çəkisi Yerin təbii peyki olan Aydan cəmi 1 faiz az olan asteroid platin, dəmir, nikel və qızıl kimi qiymətli metallarla zəngindir. Onların ümumi dəyərinin təqribən 700 kvintilyondur. Britaniyalı iqtisadçıların hesablamalarına görə, əgər bu qədər sərvət Yerə gətirilsə və dünya əhalisi arasında bərabər bölünsə, o zaman 7 milyard insanın hamısı milyarder ola bilər. Lakin, təəssüf doğuran odur ki, bu, iqtisadi cəhətdən mümkün deyil. Dünya iqtisadiyyatı ümumilikdə 59,9 funt sterlinq dəyərindədir və bu miqdarda qiymətli metalların Yerə daşınmasını qəbul etmək iqtidarında deyil. Böyük Britaniyadakı Asteroid Mədən Şirkətinin rəhbəri Mitç Hanter BBC te3lekanlına müsahibəsində bildirib ki, göy cisimlərində qiymətli metalların Yerə gətirilməsi yeni iqtisadi bum yarada bilər. Onun sözlərinə görə, əvvəlcə bunun üçün müvafiq infrastruktur yaradılmalıdır. NASA-nın kosmik missiyası asteroidin olduğu orbitdə 21 ay qalacaq və asteroidin səthinə enərək tədqiqatlar aparacaq.

# İt dəfnə qədər 2 həftə müəllim dostunun yolunu gözlədi

**İt hər gün ona baxan müəllimin kabinetinin qarşısına gəlirdi, amma onun dostu bir daha gözə dəymədi.**

"Qafqazinfo" xəbər verir ki, "Buboy" ləqəbli it professor Karmelito Marselo ilə iki il əvvəl dostlaşmışdı. Universitet müəllimi dördayaqlını yedizdirməyə başlamışdı, o da hər gün onun kabinetinin qarşısına gəlirdi. İt gecələr binanın keşiyini də çəkirdi. Günlərin bir günü müəllim işə gəlmədi. 58 yaşlı professor ürəktutması səbəbindən xəstəxanaya yerləşdirilmişdi. İki həftə orada yatan K.Marselonun səhhətində irəliləyiş olmadı və o, dünyasını dəyişdi. Həmin müddət ərzində it hər gün eyni hərəkəti təkrar edir, çox sevdiyi insanla görüşə gəlirdi. İtin davranışından təsirlənən tələbələr onu da özləri ilə dəfn mərasiminə aparmaq qərarına gəlir. Professorun sadiq dostu onun tabutunu görüncə ulayıb, daha sonra isə yanında uzanıb. İndi itə biganə qalmayanlar onun üçün yeni ev axtarışındadır.

## Elan

Mahmudov Faxrət Ağahüseyn oğluna məxsus, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti № 25 binanın (- 3) səviyyəsində yerləşən qarajın sənədləri itdiyi üçün etibarsız sayılır.

"SKS" MTK-ya məxsus, Bakı şəhəri, Nəsimi rayonu, R.Rza küçəsi, 56 saylı evin mənzilinə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır (5 saylı DNK-nın 11.02.2005-ci il tarixli 4ə - 01/122 reyestr nömrəli alqı-satqı müqaviləsinə əsasən 12.05.2005-ci il tarixində qeydiyyatdan keçib).

Əhmədov Teymur Telman oğluna Binəqədi Rayon Polis İdarəsi tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi, Mazda 6, 90 RC 555 dövlət nömrə nişanlı avtomaşının AC 468902 texniki pasportu və sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

"SKS" MTK-ya məxsus, Bakı şəhəri, Nəsimi rayonu, Füzuli küçəsi, 45 saylı evin mənzilinə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır (5 saylı DNK-nın 17.05.2008-ci il tarixli 4ə - 2-269 reyestr nömrəli alqı-satqı müqaviləsinə əsasən 27.05.2008-ci il tarixində qeydiyyatdan keçib).

Qafarlı Aynur Afət qızının adına verilmiş M. Cəlal küçəsi, 145 saylı evin qeydiyyat vəsiqəsi (№059395) itdiyi üçün etibarsız sayılır.

## Məktəblilər "Bakcell"in qonağı oldu

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkətinin ofisində "Dərs Evi" tədris mərkəzinin keçirdiyi "Yaaay!" proqramının iştirakçıları ilə görüş keçirilib.**

Proqramda iştirak edən məktəblilər "Bakcell" şirkətinin Əlaqə Mərkəzinə səfər edib, 7x24 rejimində fəaliyyət göstərən mərkəzin iş prinsipi ilə tanış olub, operatorların abunəçilərlə danışığını izləyib, abunəçilərlə ünsiyyət qaydaları barədə məlumatlandırılıblar. Əlaqə Mərkəzinin əməkdaşları onların çoxsaylı suallarını cavablandırıb.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti "Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. "Bakcell" abunəçiləri "555" Əlaqə Mərkəzinə zəng vurmaqla və ya "Mənim Bakcellim" mobil tətbiqetməsindən istifadə etməklə öz mobil nömrələri ilə bağlı bir çox əməliyyatı həyata keçirə bilərlər.

Məktəblilərə peşə seçimində dəstək göstərmək məqsədi daşıyan "Yaaay!" proqramı çərçivəsindəVIII-XI sinif şagirdləri IT, incəsənət, səhiyyə, mühəndislik, təhsil, aqrobiznes, maliyyə, nəqliyyat, telekommunikasiya, inşaat, turizm və otelçilik sahələrində fəaliyyət göstərən şirkətlərə səfər edib, onların iş prosesi ilə yaxından tanış olub özlərini bu peşələrdə sınamaq imkanı əldə edirlər.





**Qoç** - Günün ilk yarısından formalaşan situasiya və hadisələrin axarı sizdən ayıq olmağı, maksimal konsentrasiyanı tələb edir. Tənbəllik etməyin. Aktual məsələlərin həllində maksimum qüvvə və inadla çalışın.



**Buğa** - Bu və digər situasiyada fərqli davranış modelini seçə bilərsiniz. Ətrafınızdakı insanlardan biri sizi dəstəkləyəcək. Yaxın səfər, uzağa səyahət təklif olunursa - razılaşın. Yaydır, bir qədər istirahətə ehtiyac duyulur.



**Əkizlər** - Prioritetlər arasında zəruri ehtiyacları və əsas məsələləri ön plana çıxarın. Yaşam arealı, gəlirlər, qidalanma, səhhət - bütün bunlar diqqət tələb edən nüanslardır. Pulunuzu məhz həmin sferalara sərf edin.



**Xərçəng** - Maddi baxımdan özünüzü rahat hiss etməyəcəksiniz. Pulunuzun qədrini bilin. Ətrafınızdakı insanların istəklərindən hali olun. Xidməti fəaliyyət müstəvisində əhəmiyyətli irəliləyişə nail olmaq şansları yaranıb.



**Şir** - Rutin işlər sizi bezdirə bilər. Mümkündür. Amma cari işləri yarımçıq qoyaraq yeni layihəyə start vermək ən azı məntiqsizlikdir. İstək, illüziya və xəyallarınızın əsirinə çevrilərək reallıqdan kənarlaşmayın.



**Qız** - İşlərin gedişatından şikayətlənmək üçün səbəb yoxdur. Fəaliyyətinizin nəticələri sizi sevindirəcək. Amma maaşınızdan və ümumiyyətlə, durumunuzdan narazısınızsa, iş yerini dəyişmək barədə düşünmək gərəkdir.



**Tərəzi** - Maliyyə problemlərinin həllinə səhər saatlarından başlasanız, yaxşıdır. Həmkarlarla və tərəfdaşlarla işbirliyi istənilən layihədə uğur şanslarını artıracaq. Pulları yalnız ən önəmli işə sərf edin.



**Əqrəb** - Əməllərinizə və sözlərinizə xüsusi diqqət yetirin. Mübahisələri aramlı arayışlar və təmkinli söhbətlə çözmək olar. İzafi emosiyalar münaqişələrə yol açır. Başqalarının istəklərini kor-koranə yerinə yetirməyin.



**Oxatan** - Baş verənləri soyuqqanlı, məntiqli şəkildə dəyərləndirin. Qüvvə və potensialınızı olduğundan artıq saymayın. Özünütənqidi unutmasanız, fəaliyyət prosesində düşünülməmiş addımların atılması ehtimalı azalacaq.



**Oğlaq** - Dəyər verdiyiniz insanlardan biri sizə yardım etməyə çalışacaq. Onun məsləhətlərinə qulaq asın. Ətrafınızdakı insanların maraq və mənafelərini nəzərə alın. Çətin situasiyada başınızı itirməyin.



**Dolça** - İdarəetmə və təsərrüfatla bağlı məsələlərin həllində astagəllik etməyin. Yaxınlarınızın dediklərinə diqqətlə qulaq asın. Onları dinləməyi bacarın. Qayğıkeş və səmimi olsanız, daha ciddi irəliləyişə nail ola bilərsiniz.



**Balıqlar** - Adi günlərdən fərqli olaraq indi yaxın ətrafınızdakı insanlarla daha sıx təmaslar zəruridir. İşdə rəhbərliklə təkbətək danışıqlar aparmaq olan. Cari problemlərin və həllini tələb edən məsələlərin müzakirələrindən çəkinməyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Pişik kobraya qalib gəlib uşaqları xilas etdi



**Hindistanda evdə zəhərli ilan görən cəsarətli pişik ona qalib gələrək uşaqları xilas edib.**

"Qafqazinfo" xəbər verir ki, həmin görüntüləri "UPI" portalı yayımlayıb. Videodan da göründüyü kimi, pişik kobra ilə uzun müddət mübarizə aparır və onu evdən uzaqlaşdırmağa müvəffəq olur. Bununla da o, evdəki uşaqları zəhərli ilanın təhlükəsindən qorumağı bacarır. Pişik heç bir xəsarət almayıb. O, bir neçə dəqiqə ərzində sosial şəbəkələrdə məşhurlaşıb. İzləyicilər onun addımından heyrətə gəldiklərini bildirib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.